# ELMİ TƏDQİQAT

Beynəlxalq onlayn elmi jurnal

# SCIENTIFIC RESEARCH

International online scientific journal

aem.az

AEM

e-ISSN: 2789-6919

AZƏRBAYCAN RESPUBLİKASI

THE REPUBLIC OF AZERBAIJAN

# ELMİ TƏDQİQAT

**Beynəlxalq onlayn elmi jurnal**

**Cild: 1 Sayı: 1**

# SCIENTIFIC RESEARCH

**International online scientific journal**

**Volume: 1 Issue: 1**

**Bakı – Baku**
**2021**

Jurnal Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Mətbu nəşrlərin reyestrinə 01.03.2021-ci ildə daxil edilmişdir.
Reyestr №4336

---

The journal is included in the Register of Press editions of the Ministry of Justice of the Republic of Azerbaijan on 01.03.2021.
Registration number: 4336

---

**Redaksiyanın ünvanı:**
Az1073, Bakı şəh.,
Mətbuat prospekti, 529,
“Azərbaycan” nəşriyyatı,
6-cı mərtəbə

**Editorial address:**
Az1073, Baku,
Press Avenue, 529,
“Azerbaijan” Publish House,
6-th floor

**Tel.:** (050) 209 59 68
(055) 209 59 68
(012) 510 63 99

**e-mail:**
tedqiqat1707@gmail.com

## Beynəlxalq indekslər / International indices

**DOI: 10. 36719**

© Jurnalda çap olunan materiallardan istifadə edərkən istinad mütləqdir.
© It is necessary to use reference while using the journal materials.
© www.aem.az
© info@aem.az

**Təsisçi və baş redaktor:**
**Mübariz HÜSEYİNOV**
tədqiqatçı
+994 50 209 59 68
tedqiqat1868@gmail.com

**Founder and chief editor:**
**Mubariz HUSEYINOV**
researcher
+994 50 209 59 68
tedqiqat1868@gmail.com

**Redaktor:**
**Dürdanə HÜMBƏTOVA**
filologiya üzrə fəlsəfə doktoru, dosent
durdanahumbatova@gmail.com

**Editor:**
**Durdana HUMBATOVA**
Phd in philology, docent
durdanahumbatova@gmail.com

**Redaktor köməkçisi:**
**Aygün ABBASOVA**
aygun.a.abbasova@gmail.com

**Assistant editor:**
**Aygun ABBASOVA**
aygun.a.abbasova@gmail.com

## REDAKSİYA HEYƏTİ

### Humanitar və ictimai elmlər bölməsi

**Möhsün NAĞISOYLU**, akademik, AMEA Dilçilik İnstitutu
**Nərgiz AXUNDOVA**, akademik, AMEA Tarix İnstitutu
**Nadir İLHAN**, prof. dr., Fırat Universiteti / Türkiyə
**Ceyran MAHMUDOVA**, sənətşünaslıq elmləri doktoru, professor, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti
**Qəzənfər KAZIMOV**, filologiya elmləri doktoru, professor, AMEA Dilçilik İnstitutu
**Coanna MARŞALEK-KAVA**, siyasi elmlər doktoru, professor, Nikolay Kopernik Universiteti / Polşa
**İzzət RÜSTƏMOV**, fəlsəfə elmləri doktoru, professor, Bakı Dövlət Universiteti
**Məhərrəm QASIMLI**, filologiya elmləri doktoru, professor, AMEA Ədəbiyyat İnstitutu
**Şirindil ALIŞANOV**, filologiya elmləri doktoru, professor, AMEA Ədəbiyyat İnstitutu
**Əmir ƏLIYEV**, hüquq elmləri doktoru, professor, Bakı Dövlət Universiteti
**Natalya MIŞINA**, hüquq elmləri doktoru, professor, Odessa Hüquq Akademiyası / Ukrayna
**Funda TOPRAK**, prof.dr., Ankara Yıldırım Beyazıt Universiteti / Türkiyə
**Anar İSGƏNDƏROV**, tarix elmləri doktoru, professor, Bakı Dövlət Universiteti
**İradə HÜSEYNOVA**, tarix elmləri doktoru, professor, Bakı Dövlət Universiteti
**Vidas KAVALIAUSKAS**, humanitar elmlər doktoru, professor, Vilnus Biznes Universiteti / Litva
**Rüfət RÜSTƏMOV,** filologiya elmləri doktoru, professor, Bakı Dövlət Universiteti
**Firuzə ABBASOVA**, hüquq elmləri doktoru, professor, Bakı Dövlət Universiteti
**Saodat MUXAMEDOVA**, filologiya elmləri doktoru, professor, Daşkənd Pedaqoji Universiteti / Özbəkistan
**Svetlana KOJIROVA**, siyasi elmlər doktoru, professor, L.N.Qumilyov adına Avrasiya Milli Universiteti / Kazaxıstan
**Masumə DAEI**, tarix elmləri doktoru, professor, Təbriz Payame Noor Universiteti / İran İslam Respublikası
**Rafail HƏSƏNOV**, sosiologiya elmləri doktoru, professor, Bakı Dövlət Universiteti
**Elşad MIRBƏŞIR OĞLU**, siyasi elmlər doktoru, professor, Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası
**Flera SEYFULLINA**, filologiya elmləri doktoru, professor, Kazan Federal Universiteti / Rusiya, Tatarıstan Respublikası
**Şəhla SƏMƏDOVA**, hüquq elmləri doktoru, professor, Bakı Dövlət Universiteti
**Şikar QASIMOV**, tarix elmləri doktoru, professor, Azərbaycan Texniki Universiteti
**Müseyib İLYASOV**, pedaqogika elmləri doktoru, professor, Azərbaycan Dövlət Pedaqoji Universiteti
**İya ZUMBULADZE**, filologiya elmləri doktoru, professor / Kutaisi Dövlət Unversiteti / Gürcüstan
**Mönsüm ALIŞOV,** pedaqoji elmlər doktoru, professor, "İdrak" liseyi
**Abbas ABBASOV**, filologiya üzrə fəlsəfə doktoru, professor, Bakı Dövlət Universiteti
**Rəşid CABBAROV**, psixologiya elmləri doktoru, dosent, Bakı Dövlət Universiteti
**Andrey RAQULIN**, hüquq elmləri doktoru, dosent, Rusiya Federasiyasının DİN Moskva Universiteti / Rusiya
**Nəriman SEYIDƏLIYEV**, filologiya elmləri doktoru, dosent, AMEA Dilçilik İnstitutu
**Dürdanə MƏMMƏDOVA**, hüquq üzrə fəlsəfə doktoru, dosent, Bakı Dövlət Universiteti
**Rövşən RAMİZOĞLU**, doktor öyretim üyesi, Selçuk Universiteti / Türkiyə
**Andrey SIZRANOV**, tarix elmləri üzrə fəlsəfə doktoru, dosent, Həştərxan Dövlət Universiteti / Rusiya

**Təbiət elmləri bölməsi**

**Vaqif ABBASOV**, akademik, AMEA Neft-Kimya Prosesləri İnstitutu
**Georgi DUKA**, akademik, Moldova Elmlər Akademiyası / Moldova
**Mehmet KARATAŞ**, prof. dr., Necmettin Erbakan Universiteti / Türkiyə
**Sabir HƏBİBOV**, akademik, Rusiya Tibbi-Texniki Elmlər Akademiyası / Rusiya
**İbrahim CƏFƏROV**, AMEA-nın müxbir üzvü, Azərbaycan Dövlət Aqrar Universiteti
**Elşad QURBANOV**, AMEA-nın müxbir üzvü, Bakı Dövlət Universiteti
**Duyğu KILIÇ**, prof. dr., Amasiya Universiteti / Türkiyə
**Zöhrab QARAYEV**, tibb elmləri doktoru, professor, Azərbaycan Tibb Universiteti
**Eldar QASIMOV**, tibb elmləri doktoru, professor, Azərbaycan Tibb Universiteti
**Mehmet ÜNLÜ**, prof. dr., Marmara Universiteti / Türkiyə
**İlham KAZIMOV**, tibb elmləri doktoru, professor, M.Topçubaşov adına Elmi Cərrahiyyə Mərkəzi
**İbadulla AĞAYEV**, tibb elmləri doktoru, professor, Azərbaycan Tibb Universiteti
**Elxan NURİYEV**, coğrafiya elmləri doktoru, professor, Bakı Dövlət Universiteti
**Elçin AĞAYEV**, tibb elmləri doktoru, professor, Azərbaycan Tibb Universiteti
**Ramiz ƏHLİMANOV**, coğrafiya elmləri doktoru, dosent, Bakı Dövlət Unversiteti
**Elçin HÜSEYN**, biotibb elmləri doktoru, Azərbaycan Dövlət Neft və Sənaye Universiteti
**Elza ORUCOVA**, tibb üzrə fəlsəfə doktoru, dosent, Azərbaycan Tibb Universiteti
**Aytəkin AXUNDOVA**, biologiya üzrə fəlsəfə doktoru, dosent, Bakı Slavyan Universiteti

**Dəqiq elmlər bölməsi**

**Məhəmməd MEHDİYEV,** akademik, Bakı Dövlət Universiteti
**Eldar VƏLIYEV,** akademik, Milli Texniki Universitet / Ukrayna
**Yaşar MEHRƏLIYEV**, riyaziyyat elmləri doktoru, professor, Bakı Dövlət Universiteti
**Eldar MƏSİMOV**, fizika-riyaziyyat elmləri doktoru, professor, Bakı Dövlət Universiteti
**Maarif CƏFƏROV**, fizika-riyaziyyat elmləri doktoru, professor, Bakı Dövlət Universiteti
**Natiq ƏHMƏDOV,** fizika-riyaziyyat elmləri doktoru, professor, Azərbaycan Dövlət İqtisad Universiteti

**Texnika elmləri bölməsi**

**Elçin İSGƏNDƏRZADƏ,** texnika elmləri doktoru, professor, Azərbaycan Texniki Universiteti
**Şahlar BABAYEV,** texnika elmləri doktoru, dosent, Azərbaycan Dövlət Aqrar Universiteti
**Elov BOTİR**, texnika elmləri üzrə fəlsəfə doktoru, dosent, Ə.Nəvai adına Özbək Dili və Ədəbiyyatı Daşkənd Dövlət Univeristeti / Özbəkistan
**Zəfər CƏFƏROV**, texnika elmləri üzrə fəlsəfə doktoru, dosent, Azərbaycan Dövlət Memarlıq və İnşaat Universiteti

## EDITORIAL STAFF

**Humanities and Social Sciences**

**Mohsun NAGISOYLU,** academician, Institute of Linguistics of ANAS
**Nargiz AKHUNDOVA,** academician, Institute of History of ANAS
**Nadir İLHAN,** prof. dr., Firat University / Turkey
**Jeyran MAHMUDOVA**, doctor of arts, professor, Azerbaijan State University of Culture and Arts
**Gazanfar KAZIMOV,** doctor of philological sciences, professor, Institute of Linguistics of ANAS
**Joanna MARSHALEK-KAWA,** doctor of political sciences, professor, Nicolaus Copernicus University / Poland
**Izzet RUSTAMOV,** doctor of Philosophy, Professor, Baku State University
**Maharram GASIMLI,** doctor of philological sciences, professor, Institute of Literature of ANAS
**Shirindil ALISHANOV,** doctor of philological sciences, professor, Institute of Literature of ANAS
**Amir ALIYEV,** doctor of Law, professor, Baku State University
**Natalya MISHYNA,** doctor of Law, Professor, Odessa Law Academy / Ukraine
**Funda TOPRAK,** prof.dr., Ankara Yildirim Beyazit University / Turkey
**Anar ISGANDAROV,** doctor of historical sciences, professor, Baku State University
**Irada HUSEYNOVA,** doctor of historical sciences, professor, Baku State University
**Vidas KAVALIAUSKAS**, doctor of humanities, professor, Vilnius Business University / Lithuania
**Rufat RUSTAMOV**, doctor of philology, professor, Baku State University
**Firuza ABBASOVA**, doctor of Law, professor, Baku State University
**Saodat MUKHAMEDOVA**, doctor of philological sciences, professor, Tashkent Pedagogical University / Uzbekistan
**Svetlana KOJIROVA**, doctor of political sciences, professor, L.N. Gumilyov Eurasian National University / Kazakhstan
**Masuma DAEI,** doctor of historical sciences, professor, Payame Noor University, Tabriz / Islamic Republic of Iran
**Rafail HASANOV**, doctor of sociological sciences, professor, Baku State University
**Elshad MIRBASHIR OGLU**, doctor of political sciences, professor, Academy of Public Administration under the President of the Republic of Azerbaijan

**Flera SEYFULLINA**, doctor of philology, professor, Kazan Federal University / Russia, Republic of Tatarstan
**Shahla SAMADOVA**, doctor of Law, professor, Baku State University
**Shikar GASIMOV,** doctor of historical sciences, professor, Azerbaijan Technical University
**Museyib ILYASOV**, doctor of pedagogical sciences, professor, Azerbaijan State Pedagogical University
**Iya ZUMBULADZE**, doctor of philological sciences, professor, Kutaisi State University / Georgia
**Monsum ALISHOV**, doctor of pedagogical sciences, professor, "Idrak" lyceum
**Abbas ABBASOV,** doctor of philosophy in philology, professor, Baku State University
**Rashid JABBAROV**, doctor of psychological sciences, docent, Baku State University
**Andrey RAGULIN**, doctor of Law, docent, Moscow University of the Ministry of Internal Affairs of the Russian Federation / Russia
**Nariman SEYIDALIYEV**, doctor of philological sciences, docent, Institute of Linguistics of ANAS
**Durdana MAMMADOVA**, doctor of philosophy in Law, docent, Baku State University
**Rovshan RAMIZOGLU**, PhD in filology, Selcuk University / Turkey
**Andrey SYZRANOV**, doctor of philosophy in historical sciences, docent, Astrakhan 43State University / Russia

## Natural Sciences

**Vagif ABBASOV**, academician, Institute of Petrochemical Processes of ANAS
**Georgi DUKA**, academician, Moldovan Academy of Sciences / Moldova
**Mehmet KARATASH**, prof. dr., Necmettin Erbakan University / Turkey
**Sabir HABIBOV**, academician, Russian Academy of Medical and Technical Sciences / Russia
**Ibrahim JAFAROV**, corresponding member of ANAS, Azerbaijan State Agrarian University
**Elshad GURBANOV**, corresponding member of ANAS, Baku State University
**Duygu KILICH**, prof. dr., Amasya University / Turkey
**Zohrab GARAYEV**, doctor of medical sciences, professor, Azerbaijan Medical University
**Eldar GASIMOV**, doctor of medical sciences, professor, Azerbaijan Medical University
**Mehmet UNLU**, prof. dr., Marmara University / Turkey
**Ilham KAZIMOV**, doctor of medical sciences, professor, Scientific Surgery Center named after M. Topchubashov
**Ibadulla AGAYEV**, doctor of medical sciences, professor, Azerbaijan Medical University
**Elkhan NURIYEV**, doctor of geographical sciences, professor, Baku State University
**Elchin AGAYEV**, doctor of medical sciences, professor, Azerbaijan Medical University
**Ramiz AHLIMANOV**, doctor of geographical sciences, associate professor, Baku State University
**Elchin HUSEYN**, doctor of biomedical sciences, Azerbaijan State University of Oil and Industry
**Elza ORUJOVA**, doctor of philosophy in medicine, associate professor, Azerbaijan Medical University
**Aytekin ACHUNDOVA**, doctor of philosophy in biological sciences, associate professor, Baku Slavic University

## Exact Sciences

**Mahammad MEHDIYEV**, academician, Baku State University
**Eldar VALIYEV**, academician, National Technical University / Ukraine
**Yashar MEHRALIYEV**, doctor of mathematical sciences, professor, Baku State University
**Eldar MASIMOV**, doctor of physical and mathematical sciences, professor, Baku State University
**Maarif JAFAROV**, doctor of physical and mathematical sciences, professor, Baku State University
**Natig AHMEDOV**, doctor of physical and mathematical sciences, professor, Azerbaijan State University of Economics

## Technical Sciences

**Elchin ISKANDARZADE**, doctor of technical sciences, Professor, Azerbaijan Technical University
**Shahlar BABAYEV**, doctor of technical sciences, docent, Azerbaijan State Agrarian University
**Elov BOTIR**, doctor of philosophy in technical sciences, docent, Tashkent State University the Uzbek Language and Literature named after A.Navai / Uzbekistan
**Zafar JAFAROV**, doctor of philosophy in technical sciences, docent, Azerbaijan State University of Architecture and Construction

DOI: https://www.doi.org/10.36719/6-8

**Südabə Nəsrəddin qızı İsgəndərova**
Azərbaycan Dövlət Pedaqoji Universiteti
pedaqogika üzrə fəlsəfə doktoru, müəllim
sudaba.isgandarova@adpu.edu.az

# MƏKTƏBƏQƏDƏR DÖVRDƏ UŞAQLARIN PSİXİ İNKİŞAFINDA REFLEKSİV BACARIQLARIN FORMALAŞMASI ŞƏRTLƏRİ

***Aşar sözlər:** məktəbəqədər yaş dövrü, refleksiya, özünüqiymətlədirmə, təqlid, ozünü dərketmə*

## Conditions for the formation of reflexive skills in the psychological development of children in the preschool period

**Summary**

In this article, the author describes the period of formation of children's reflexive abilities. This is preschool age with the development of personality through imitation, where the formed self-consciousness shows a tendency to introspection, self-esteem, self-affirmation, the ability to imitate, creating conditions for the development of reflection.

Understanding ethical qualities through identification, the child perceives himself, creating an image for himself.

The author suggests that for a successful result, the development of reflection in adulthood as a result of joint activities and interaction with the teacher. The author notes that if you follow the recommendations, you can achieve some success.

***Key words:** preschool age, reflection, self-esteem, imitation, self-awareness*

Refleksiv bacarıq və vərdişlərin ilkin əlamətləri məktəbəqədər yaş dövründə inkişaf etməyə başlayır. Bu zaman refleksiyanın inkişafına təkan verən uşağın böyüklərlə nitq vasitəsi ilə ünsiyyətdə olmasıdır. Məktəbəqədər yaş dövründə uşagın psixi inkişafı sayəsində refleksiya imkanları artır. Məsələn, identifikasiya yolu ilə etik normaları dərk edir və etik keyfiyyətlər qazanır. Uşaq özü üçün obraz yaradaraq özünü dərk edir. Bu zaman özünün davranış etalonu anlayışı ilə davranışını müqayisə edir. Öz "mənini" etalonla və başqa insanların "məni" ilə əlaqələndirərək refleksiv imkanları inkişaf etdirir. Böyük məktəbəqədər yaş dövründə refleksiyanın inkişafı birgə fəaliyyət və pedaqoqla qarşılıqlı təsirin nəticəsində həyata keçir:

-uşaqda öz daxili dünyasına marağın yaranmasına şərait olur;
-öz davranış və imkanlarını, özünü düzgün qiymətləndirmək bacarığını öyrənir;
-başqalarının fikirlərini anlayır və hörmətlə yanaşmanı öyrənir;
-əldə etdiyi təcrübəni, təəssuratları müzakirə etmək, ifadə etmək imkanı qazanır;
-konfliktləri həll etmə bacarığı əldə edir;
-uşaqlarda empatiya inkişaf edir;
-özünə və yoldaşlarına müsbət münasibət formalaşır.

Refleksiya yeni biliyin əvvəlki biliyə transformasiya olunmasınında, dərk olunmasında, inteqrasiya olunmasında vacib rol oynayır. Refleksiya o zaman baş verir ki, uşaq təlim prosesinə daxil olur və aktiv olur. Refleksiyanın müxtəlif sahələrdə təzahürünə görə bu növləri vardır: koqnitiv, psixomotor, affektiv, şəxsiyyatlararası.

Kiçik məktəb yaşlı uşaqlar təhsilin birinci ilində fəaliyətin iradi tənzimlənməsində, problemin təhlilində, fəaliyyətin daxildə planlaşdırılmasında, qrupda bələdləşməkdə, refleksiv imkanların tətbiqində çətinlik çəkirlər. Ona görə də məktəbəqədər yaş dövründə uşaqlarda intellektual refleksiyanın inkişafına şərait yaratmaq lazımdır. İdraki refleksiyanın ilkin şərtləri kimi uşağın tapşırıqların həlli üçün onun ayrı-ayrı komponentlərinə bələdləşmənin yaranması və təkmilləşməsini qeyd etmək olar. Bu komponentlərə şərtlər, yerinə yetirilmə yolları və nəticə aiddir.

İdraki refleksiyanın öyrənilməsi üçün uşaqlara problemli tapşırıqlar verilir və onun həlli tapşırılır. Problemin yaradıcı həlli öz imkanlarını, nəticələrini əvvəlcədən proqnozlaşdırmağı və ya tapşırığın

yerinə yetirilmə xüsusiyyətlərinin dərk edilməsini tələb edir. Bu zaman tapşırıqların uğursuz həlli və şərtlərin uyğun olmaması səbəbindən uşaqlar nəticə ala bilmədikləri üçün sitiasiya modelləşdirilir.

Refleksiv qabiliyyət və bacarıqların psixoloji xüsusiyyətlərini tam başa düşmək üçün onun uşaqlıqda yaşa görə formalaşma xüsusiyyətlərini bilmək vacibdir. Q.S.Pyankova, ontogenezin müxtəlif mərhələlərində refleksiv bacarıq və vərdişlərin inkişaf xüsusiyyətləri və qanunauyğunluqlarını öyrərkən, ontogenezdə refleksiyanın meydana gəlməsi ilə əlaqəli onun bir sıra mürəkkəb mərhələlərdən keçdiyini müəyyən edir (M.N.Apletayev, V.QBoqin, N.V.Dorofeyeva, V.V.Davıdov, E.I.Isaev, N.V.Repkina, V.I.Slobodcikov) (2, c. 40).

Məktəbəqədər dövrdə uşaqların davranışı intellektual özünütənzimetmə çərçivəsindən çıxaraq sosial davranış və hərəkətlərin idarəsi müstəvisinə keçir. İntellektual özünütənzimetmə şəxsiyyət və mənəvi özünütənzimetmə forması alır. Davranışın mənəvi normaları tədricən uşaqlarda adət şəkli almış hərəkətlərə çevrilir, davamlı xarakter alır və öz situativliyini itirir (4, c. 914). Məktəbəqədər uşaqlığın sonunda uşaqların əksəriyyətində müəyyən əxlaqi mövqe formalaşır, bu və ya digər dərəcədə özünün ardıcıl xarakteri ilə seçilir. Bu dövrdə uşaqların gələcək şəxsi taleyində əhəmiyyətli rol oynayan bir sıra davamlı və faydalı keyfiyyətlər kompleksi meydana gəlir. Bu uşağın ətrafdakı adamlar tərəfindən tanınmağa və bəyənilməyə cəhd etməsindən ibarətdir. Bu zəmində, normal tərbiyə şəraitində uşaqlarda uğur qazanmağa tələbat, məqsədəyönəmlilik, özünə inam hissi, müstəqillik və s. kimi bir çox keyfiyyətlər yaranmış olur. Böyük məktəbəqədər yaşda uşaqlarda ətraf adamlarla əlaqələrə yönəlmiş ünsiyyət motivləri dərinləşir. Uşağın hər şeyi bilmək istəyi kimi özünü göstərən təbii xüsusiyyətləri vasitəsilə onlarda ünsiyyətin yeni motivləri-işgüzarlıq və şəxsi fəallıq kimi keyfiyyətləri müşahidə olunur. Onların vasitəsilə uşaq hər hansı məsələnin həllində çətinlik çəkərkən yaşlılara müraciət edir, öz hərəkətlərinin yaşlılar tərəfindən qiymətləndirilməsini istəyir. Böyük məktəbəqədər yaşın sonlarına doğru uşaqların əksəriyyətində təlimə daxili, şəxsi-iradi hazırlığın ilkin əlamətləri müşahidə olunur ki, bu da uşağın məktəb təliminə ümumi psixoloji hazırlığının zəruri tərkib hissəsi kimi nəzərdən keçirilə bilər (1, c. 71). Məktəbəqədər yaşlı uşaqların çoxu fəaliyyət prosesində öz uğuru və ya uğursuzluğuna emosional reaksiya göstərir, nəticədən asılı olaraq müsbət və ya mənfi hisslər keçirilər. Uşaq fəaliyyətinin nəticəsi olan uğuruna sadəcə olaraq sevinmir, həm də özünəməxsus tərzdə iftixar hissi keçirir, öz şəxsi ləyaqətini nümayiş etdirməyə çalışır. Lakin elementar özünüqiymətləndirmə reaksiyaları çox nadir hallarda müşahidə olunur. Psixoloqların fikrincə, 3,5 yaşlı uşaqlarda emosional reaksiyalar kütləvi xarakterli oldugu halda, 4 yaşlı uşaqlar öz imkanlarını daha real qiymətləndirmək bacarıqlarına malik olurlar. Məktəbəqədər yaşın sonlarına doğru uşaqlarda öz bacarıq və qabiliyyətləri haqqında təsəvvürlər meydana gəlir. Onlar şəxsi uğur və uğursuzlugun qabiliyyətlərdən asılılığını müəyyən səviyyədə dərk edir, bu qənaəti eyni bir işi başqaları ilə müqayisədə hansı səviyyədə yerinə yetirdiklərini müşahidə etməklə əldə edirlər. Müəyyən edilmişdir ki, 4,5 yaşlı uşaqlarda özünəinam hissi çox güclü olur və onlarda adekvat iddia səviyyəsi hələ formalaşmamışdır. Onlar çox vaxt gücləri çatmayan işlərə əl atır, bu işin öhdəsindən gələ biləcəklərinə inamlı olurlar. 5-6 yaşlarında uşaqların psixoloji simasında, davranışın emosional-motivləşmə baxımından tənzimində diqqəti cəlb edən xüsusiyyətlərdən biri də motivlərin qarşılıqlı tabeliyidir. Uşaqlar təsadüfi istək və meyllərini ləngitməklə, onları əxlaqi cəhətdən daha yüksək əhəmiyyətli motivlərə tabe etməyə çalışırlar. Onlar keçmişdə daha kiçik olanda nələr baş verdiyini, gələcəkdə nələrin olacağını yaşlılardan xəbər alır, güclü, cəsur, xeyirxah və agıllı adamların hərəkətlərinə rəgbət bəsləyirlər. Məktəbəqədər uşaqlıq illərində insanın şəxsiyyət keyiyyətlərinin baza əlamətləri təşəkkül tapmağa, formalaşmağa başlayır, get-gedə möhkəmlənir, şəxsiyyətin davamlı fərdiyyətinin əsas əlamətlərinə-xarakterə çevrilir. Uşağın psixikasında şəxsiyyətyönümlü keyfiyyətlər kimi nəzərdən keçirilən emosionallıq və ünsiyyətlilik, dözümlülük və səbr, işgüzarlıq və qətiyyətlilik və s. keyfiyyətlər bir çox amillərin – genotin və mühitin, şüur və şüuraltının, operant və şərti reflektor öyrənmənin, təqlidin və s. təsiri altında yaranır və möhkəmlənir. 3-4 yaşlarından başlayaraq uşaq ona verilən tələb vasitəsilə, özünü başqaları ilə müqayisə etmək yolu ilə özünüqiymətləndirmə sisteminə yiyələnir, davranışın iradi tənzimi formalarına sahib olur. Bu, uşağın «daxili mövqeyinin»- ətraf aləmə, başqa adamlara və özünə qarşı münasibətinin kifayət qədər davamlı sisteminin formalaşdığının göstəricisi olub, olduqca dəyərli keyfiyyət kimi nəzərdən keçirilə bilər. Onun ilkin əlamətləri uşağın sonrakı ontogenetik inkişaf mərhələlərində davamlı və sabit psixoloji törəmələrin, şəxsiyyətə məxsus bir çox keyfiyyətlərin, ilk növbədə isə, müstəqillik, dözümlülük, məqsədəyönəlmişlik, təkidlilik, qətiyyətlilik və s. kimi iradi keyfiyyətlərin formalaşması və

inkişafının çıxış nöqtəsi olur. Psixoloqların fikrincə, 7 yaşında uşaqlar özlərini əsasən xarici əlamətlər baxımından səciyyələndirir və daxili aləmlərini davranışlarından fərqləndirə bilmirlər. Formalaşmış özünüdərketmə sayəsində uşaqlarda özünü təhliletmə meyli yaranır. Bunun vasitəsilə uşaqlar onları əhatə edən mühitdə nələrin baş verdiyini, bu hadisələrin onlara nə dərəcədə aid olmasını anlamaga başlıyırlar. Bu dövrdə uşagın şəxsiyyətinin inkişafında diqqəti cəlb edən xüsusiyyətlərdən biri də ətrafdakı adamların, xüsusilə yaşlıların və yaşıdların təqlid edilməsidir. Müəyyən edlmişdir ki, məktəbəqədər yaş dövrü təqlidçilik yolu ilə şəxsiyyətin inkişafı üçün senzitiv yaş dövrü kimi nəzərdən keçirilə bilər. Məktəbəqədər dövrdə uşaqların təqlidçiliyi mənəvi-etik selektivliyə (seçiciliyə) malik olmadıgı üçün, onlar yalnız müsbət deyil, həm də mənfi davranış nümunələrini asanlıqla mənimsəyirlər. Bu da uşaqlıq illərində pis vərdişlərin mənfi adət şəkli almış hərəkətlərin meydana çıxmasına səbəb olur. 3-4 yaşlarından başlayaraq uşaqlarda yaşlılarn davranışını müşahidə etmək, onların nümunəsi və təsiri nəticəsində xarakterin ilkin və davamlı əlamətləri formalaşmaga başlayır. Bu prosesdə uşagın ilk tərbiyəçiləri olan valideynlərin rolu xüsusilə böyükdür. Uşaqlar üçün müsbət təqlid obyekti olan valideynlər, onların uşaga müsbət münasibəti onun psixikası və davranışına daha güclü təsir göstərir. Psixoloji tədqiqatlar vasitəsilə sübut olunmuşdur ki, 3-8 yaşlar dövründə uşaqlar valideynlərin təsirinə qarşı daha həssas və itaətkardır. Göstərilən yaş həddində oglanlar və qızların yaşlıların təsirinə həssaslıgında fərqlərin mövcudlugu da müəyyən edilmişdir. Belə ki, qızlarda valideynlərin təsirinə qarşı həssas münasibət daha tez başlayır və daha uzun müddət davam edir. Qızlar daha itaətkar və sözəbaxan olurlar. Oğlanlarda bu proses qızlardan fərqli olaraq iki il gec, yəni 5 yaşında başlanır və 7 yaşınadək davam edir. Məktəbəqədər uşaqlıq dövründə uşaq öz psixi inkişafında çox uzun bir inkişaf mərhələsi keçir. Bu illər ərzində uşaqlarda intellektual planda daxili əqli əməliyyatlar təşəkkül tapır və təkmilləşməyə doğru istiqamət götürür: İdraki, şəxsi həyati, daha sonra isə emosional-motivləşmə sferasında yeni törəmələrin əsası qoyulur. Psixi idrak proseslərinin və əxlaqi cəhətdən qiymətləndirilən davranış normalarının ixtiyariliyinin intensivliyində artım tempi müşahidə olunur. Bu illər ərzində uşağın mənimsədiyi davranış normaları və qaydaları onun davranışını idarə etməyə başlayır. İxtiyari hərəkətlərə çevrilmiş, əxlaqi cəhətdən tənzimlənən hərəkətlər vasitəsilə uşaqla onun mühiti arasında əlaqələr genişlənir, şəxsi və işgüzar fəallığı şərtləndirən müxtəlif motivlər yaranır. Bunların vasitəsilə uşağın fərdiyyətçi-subyekt kimi müstəqil davranışı genişlənir. O, uşağın şəxsiyyət yönümlü fəallıgına, yeni sosial keyfiyyətlər daşıyıcısı kimi həm intellektual, həm də əxlaqi-motivləşmə cəhətdən başqalarından aydın fərqlənən xüsusiyyətləri kompleksinin bitkin əlamətlərinin meydana gəlməsində zəmin yaradır.

Beləliklə, məktəbəqədər dövrdə uşaqların psixi inkişafında reflektıv bacarıqların formalaşması şərtlərinə düzgün formalaşan tələbat-motivasiya sferası, özünüqiymətləndirmə, təqlid etmə bacarığı, özünüdərketmə, əqli əməliyyatlar, emosional-iradi sfera və digır sahələr mühüm rol oynayır.

## Ədəbiyyat

1. Бородина В.А., Цилицкий В.С., Тьюторское сопровождение формирования рефлексивных механизмов социализации детей с ограниченными возможностями здоровья (теоретические основы)]: учебно-методическое пособие, Челябинск, 2017. -117 с.
2. Бизяева А.А.Психология думающего учителя: Педагогическая рефлексия / А.А.Бизяева. – Псков: ПГПИ им. С.М.Кирова, 2004. 216 с.
3. Петерсон Л.Г. Формирование и диагностика организационно-рефлексивных общеучебных умений в образовательной системе «Школа 2000»: метод. пособие / Л.Г.Петерсон, Ю.В. Агапов. – М.: УМЦ «Школа 2000…», 2009. – 112 с.
4. Цилицкий В.С. Закономерности формирования рефлексивных умений и навыков на разных этапах возрастного развития человека / В.С.Цилицкий // Молодой ученый. – 2015. – № 22. – С. 913–917.

göndərildi 14.12.2020: qəbul edildi. 28.12.2020

DOI: https://www.doi.org/10.36719/9-15

**Rəşad Rəhim oğlu Ağakişiyev**
H.Əliyev adına Neft Emalı Zavodu
doktorant
rashad6312@gmail.com

# HEKSAMETİLENDİAMIN VƏ QARĞIDALI YAĞ TURŞUSU ƏSASINDA SİNTEZ OLUNMUŞ AMİDOMİNİN MÜXTƏLİF YAĞ TURŞULARI İLƏ HAZIRLANMIŞ KOMPOZİSİYALARININ BİTUMA AŞQAR KİMİ TƏDQİQİ

***Açar sözlər:*** *amidoamin, heksametilendiamin,bitum, pambıq, günəbaxan, soya, qarğıdalı*

## Study of compositions of amidomine synthesized with various fatty acids on the basis of hexamethylenediamine and corn fatty acid as a bitumen additive

**Summary**

Amidoamine was synthesized on the basis of corn fatty acid and hexamethylenediamine in a ratio of 1: 1 mol. Compositions were prepared by using synthesized amidoamine with various fatty acids (sunflower, corn, cotton and soy) in a ratio of 1: 1 mol. In order to improve the quality of road bitumen, these compositions were used as high-quality additives for road bitumen. Compositions prepared for this purpose were added to bitumen in the amount of 0.4% and 0.6% and the quality indicators were compared with the quality indicators of road bitumen produced at Heydar Aliyev Oil Refinery (HAOR). Based on the quality indicators of bitumen, it can be noted that additives based on the composition of amidoamine with sunflower and corn fatty acids that are added to bitumen with amount of 0.4%, the bitumen penetration at 25°C without additives 48 mm, with additive 50mm, tension without additive 75cm, with additive up to 90 cm, and the brittleness temperature ranged from minus 18ºC to -27ºC.

The addition of 0.4% and 0.6% of the synthesized amidoamine to sunflower and corn fatty acids as additives to road bitumen changed the bitumen adhesion from 3 to 1.

***Key words:*** *amidomin, hexamethylenediamine, bitumen, cotton, sunflower, soybean, corn*

## Giriş

Məlumdur ki, yol nəqliyyatının hazırki inkişaf səviyyəsi yük daşımalarının payının davamlı artmasından, yük nəqliyyat vasitələrinin hərəkət intensivliyindən asılıdır. Bu isə yol örtüklərinin dinamiki yüklənməsinin artmasına gətirib çıxarır. İqtisadiyyatın inkişafı ilə əlaqədar olaraq, yol tikintisi və inşaat işlərində istifadə edilən bitumlara tələbat günbəgün artır. Bu səbəbdən də bitumların keyfiyyətinin yaxşılaşdırılması vacib məsələlərdəndir. Məlumdur ki, bitumun keyfiyyəti dövlət standartlarına uyğun olmalı və vaxtaşırı mükəmməlləşdirilməlidir. Keyfiyyətə olan tələbatın dəyişməsi asfalt betonun alınma texnologiyasında dəyişiklik və bituma olan tələbatdan asılıdır (1). Bitumun yüksək keyfiyyətli olması üçün onun birləşdirici material kimi adgeziya xassəsi, plastiki deformasiyaların əmələ gəlmə davamlılığı yüksək olmalı, həmçinin aşağı temperaturlarda çatlara qarşı davamlılığı təmin etmək üçün plastiklik intervalı geniş olmalı, yüksək temperatur intervalında xassələri stabil olmalıdır. Aşağı keyfiyyətli bitum yol örtüyünün istismar müddətini xeyli azaldır. Son zamanlar bütün dünya üzrə yol tikintisində, polimermodifikasiyalaşdırılmış və ya polimer-bitumlu yapışdırıcıların (PBY) tətbiqində böyük sifariş yaranmışdır (2-6). Belə yapışdırıcılardan istifadə edildikdə asfalt-betonun su hopdurması azalır və suyadavamlılıq əmsalı artır. Bu da yol örtüyünün istismar müddətinin artırılması üçün əsas şərtlərdən biridir. Bitumun əsas vəzifəsi mineral materialın hissəciklərini möhkəm və uzun müddət etibarlı birləşdirib karkaz halında saxlamaqdır (4). Qeyd edək ki, bitumların çınqıla yapışma qabiliyyətini, yəni adgeziya qabiliyyətini yaxşılaşdırmaq məqsədi ilə bir çox adgeziya aşqarlarından istifadə edilir. Bu məqsədlə kationaktiv səthi-aktiv maddələr – amidoaminlər, imidazolinlər, amin birləşmələri və onların duzları daha çox istifadə edilir (8, 9). Yol bitumlarının keyfiyyət göstəricilərinin yaxşılaşması üçün aşqarların əlavə edilməsi sahəsində geniş tədqiqatlar aparılsa da, bu məqsədlə yeni, keyfiyyətli SAM-ların

hazırlanması hələ də aktual problem olaraq qalmaqdadır. Adgeziya aşqarlarının effektivliyi fərdi polyar qrupların və ya SAM kompozisiyalarının amfolitliyi və bu səthi aktiv maddələrin qeyri-polyar hissəsinin kimyəvi quruluşundan asılıdır ki, bu da onların dispers fazanın və ümumilikdə dispers mühitin həcmi ilə daha effektiv qarşılıqlı təsirdə olmasını təmin edir (10). Azərbaycanda da keyfiyyətli yol bitumlarının alınması sahəsində geniş tədqiqat işi aparılır və bu, aktual problemlərdən biri kimi tədqiqatçılar tərəfindən geniş tədqiq edilir (11). Azərbaycanda yol bitumu azparafinli dəniz neftlərinin qudronlarından oksidləşmə yolu ilə alınır. Heydər Əliyev adına Bakı Neft Emalı Zavodunda istehsal olunan yol bitumunun keyfiyyət göstəriciləri standartın tələbatlarına cavab versə də, bəzi keyfiyyət göstəriciləri, xüsusən də kövrəklik temperaturu tələbatı demək olar ki, ödəmir. Belə ki, soyuq şəraitlərdə bitum kövrəkləşdikdə və suyun donması nəticəsində daha geniş həcmə malik buzun əmələ gəlməsi səbəbindən asfalt beton örtüyün dağılması problemləri daha da ciddiləşir. Heydər Əliyev adına Bakı Neft Emalı Zavodunda istehsal olunan yol bitumunun adgeziya qabiııyyəti aşağı olduğu üçün, bu bitumlara aşqarların əlavə olunması mütləqdir. Göstərilənləri nəzərə alaraq qeyd edtmək olar ki, yol bitumları üçün aşqarların yaradılması aktual problem olaraq qalır.

Deyilənləri nəzərə alaraq, təqdim olunmuş işin əsas məqsədi heksametilendiamin və qarğıdalı yağ turşusu əsasında amidoamini sintez edərək, onun müxtəlif yağ turşuları kompozisiyalarını hazırlamaq və bu kompozisiyalardan yol bitumları üçün yüksək keyfiyyətli aşaqrlar kimi istifadə etməkdir.

Buna əsasən heksametilendiamin və qarğıdalı yağ turşusu əsasında alınmış amidoaminin müxtəlif yağ turşuları ilə (günəbaxan, pambıq, qarğıdalı və soya) kompozisiyaları hazırlanmış və bu kompozisiyalar bituma aşqar kimi müəyyən faiz miqdarında (0,4 və 0,6%) əlavə olunmaqla tədqiqat işləri aparılmışdır.

Qarğıdalı yağ turşusu ilə heksametilendiamin əsasında 1:1 mol nisbətində mol nisbətində alınmış amidoaminlərin sintezi aşağıdakı kimi aparılmışdır.

Qarışdırıcı, termometr, qızdırıcı və ayırıcı qıf ilə təchiz olunmuş üçboğazlı reaksiya kolbasına əvvəlcədən hesablanmış miqdarda texniki neft turşusu tökülərək qarışdırılmaqla 80-100°C-yə qədər qızdırılır. Sonra bu temperatur şəraitində sintez üçün nəzərdə tutulmuş 1,6-diaminoheksan reaksiya aparmaq üçün kolbada yerləşən turşu üzərinə tədricən əlavə olunur. Reaksiyanın temperaturu 140°C-yə çatdırılaraq 3-3,5 saat müddətində intensiv qarışdırmaqla davam etdirilir. Reaksiya başa çatdıqdan sonra qızdırıcı söndürülür, qarışdırmanı davam etdirməklə reaksiya məhsulu 100°C-yə qədər soyudulur və reaksiya kolbasından ağzı kip bağlanan qaba keçirilir.

Qarğıdalı yağ turşusu və heksametilendiamin əsasında amidoaminin alınması reaksiyası aşağıdakı kimidir:

$$RCOOH + H_2N-CH_2-CH_2-CH_2-CH_2-CH_2-CH_2-NH_2 \xrightarrow{t=130\text{-}140^{\circ}C} R-C(=O)-NH-CH_2-CH_2-CH_2-CH_2-CH_2-NH_2 + H_2O$$

Qarğıdalı yağ turşusu ilə heksametilendiamin əsasında 1:1 mol nisbətində sintez olunmuş amidoaminin İQ- spektri aşağıdakı şəkildə verilmişdir.




Şəkil 1. Qarğıdalı yağ turşusu ilə heksametilendiamin əsasında 1:1 mol nisbətində sintez olunmuş amidoaminin İQ- spektri.

721 $sm^{-1}$ – $CH_2$ – qrupunun C–H rabitəsinin riyazi rəqsi;

683 $sm^{-1}$, – NH qrupunun N– H rabitəsi;

1262 $sm^{-1}$ – amid qrupunun C–N rabitəsinin valent rəqsinə amin qrupunun N–H rabitəsinin deformasiya rəqsi ilə üst-üstə düşür;

1302, 1398, 1465, 2851, 2920 $sm^{-1}$, – $CH_3$ və $CH_2$ qruplarının C–H rabitəsinin uyğun olaraq deformasiya və valent rəqsləri;

1534 $sm^{-1}$ – NH qrupunun N– H rabitəsinin deformasiya rəqsinə və amiq qrupunun C–N rabitəsinə xas olan udma zolaqları üst-üstə düşür;

1635 $sm^{-1}$ C–$NH_2$ qrupunun N–H rabitəsinin və CONH–qrupunun C–N rabitələrinin udma zolaqları üst-üstə düşür;

3008 $sm^{-1}$ – HC= C qrupunun C–H rabitəsinin valent rəqsi;

3309 $sm^{-1}$ – NH qrupunun N– H rabitəsinin valent rəqsi.

Azərbayvanda Bakl Neft Emalı Zavodunda istehsal olunan yol bitumunun keyfiyyət göstəriciləri (kövrəklik temperaturu) və adgeziyası aşağı olduğu üçün, aşqarın əlavə olunması mütləqdir. Bakı Neft Emalı Zavodunda istehsal olunan yol bitumunun keyfiyyət göstəriciləri aşağıdakı cədvədə göstərilmişdir (cədvəl 1).

**Cədvəl 1**

Bakl Neft Emalı Zavodunda istehsal olunan yol bitumunun keyfiyyət göstəriciləri

| Göstəricilər | Yol bitumu | TŞ Az 3536601.242-2015 əsasən BNB 50/70 markalı özlü neft yol bitumuna tələblər |
|---|---|---|
| İynənin batma dərinliyi, 0,1 mm 25°C-də | 48 | 51-70 |
| “Kürə və halqa”ya görə yumşalma temperaturu, °C | 48 | 46-54 |
| Dartılma, sm, 25°C-də | 75 | 50 |
| Kövrəklil temperaturu, 0°C | -18 | -15 |
| Qırmadaşa yapışması, balla | 3 | 1, 2, 3 bal |

Yol bitumunun keyfiyyət göstəricilərini yaxşılaşdırmaq məqsədi ilə, xammal olaraq qarğıdalı yağ turşusu və heksametilendiamindən istifadə olunmaqla sintez olunmuş amidoaminin günəbaxan, pambıq, qarğıdalı və soya yağ turşuları ilə müxtəlif qatılıqlarda kompozisiyalarının 0,4 və 0,6 % miqdarında yol bitumuna əlavə olunması ilə alınan nəticələr cədvəl 2 və 3 də verilmişdir.

**Cədvəl 2**

Qarğıdalı yağ turşusu ilə heksametilendiamin əsasında sintez olunmuş amidoaminin müxtəlif yağ turşuları ilə kompozisiyalarının 0,4% miqdarında yol bitumuna əlavə olunması ilə keyfiyyət göstəriciləri

| № | Sintez olunmuş aşqarların yol bitumuna əlavəsi | Yumşalma temperaturu, °C | İynə batma dərinliyi, 0,1 mm 25°C-də | Dartılma, sm | Kövrəklik temperaturu, °C | Adgeziya |
|---|---|---|---|---|---|---|
| | | | | 25°C | | Balla |
| 1 | Yol bitumu | 48 | 48 | 75 | -18 | 3 |
| 2 | Amidoamin (qarğıdalı yağ turşusu + heksametilendiamin) 1:1 mol nisbətində | 48 | 50 | 71 | -22 | 2 |
| 3 | Amidoamin + soya yağ turşusu 1:1 mol nisbətində | 47,5 | 50 | 67 | -23 | 2 |
| 4 | Amidoamin + pambıq yağ turşusu 1:1 mol nisbətində | 47,2 | 50 | 69 | -24 | 2 |
| 5 | Amidoamin + günəbaxan yağ turşusu 1:1 mol nisbətində | 47 | 50 | 75 | -26 | 1 |
| 6 | Amidoamin + qarğıdalı yağ turşusu 1:1 mol nisbətində | 46,5 | 50 | 90 | -27 | 1 |

**Cədvəl 3**

Qarğıdalı yağ turşusu ilə heksametilendiamin əsasında sintez olunmuş amidoaminin müxtəlif yağ turşuları ilə kompozisiyalarının 0,6% miqdarında yol bitumuna əlavə olunması ilə keyfiyyət göstəriciləri

| № | Sintez olunmuş aşqarların yol bitumuna əlavəsi | Yumşalma temperaturu, °C | İynə batma dərinliyi, 0,1 mm 25°C-də | Dartılma, sm | Kövrəklik temperaturu, °C | Adgeziya |
|---|---|---|---|---|---|---|
| | | | | 25°C | | Balla |
| 1 | Yol bitumu | 48 | 48 | 75 | -18 | 3 |
| 2 | Amidoamin (qarğıdalı yağ turşusu + heksametilendiamin) 1:1 mol nisbətində | 48 | 50 | 57 | -22 | 2 |
| 3 | Amidoamin + soya yağ turşusu 1:1 mol nisbətində | 47,8 | 50 | 55 | -23 | 2 |
| 4 | Amidoamin + pambıq yağ turşusu 1:1 mol nisbətində | 47,5 | 50 | 59,06 | -24 | 2 |
| 5 | Amidoamin + günəbaxan yağ turşusu 1:1 mol nisbətində | 47,2 | 50 | 60,19 | -25 | 2 |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| 6 | Amidoamin + qarğıdalı yağ turşusu 1:1 mol nisbətində | 46,5 | 50 | 77 | -26 | 1 |

Cədvəl 2 və 3-ə əsasən qeyd etmək olar ki, ən yaxşı aşqar effekti sintez olunmuş amidoaminin qarğıdalı və günəbaxan yağ turşuları ilə kompozisiyasının 0,4 və 0,6 % aşqar kimi bituma əlavə olunması, bitumun istismar xassələrini digər aşqarlara nisbətən daha çox yaxşılaşdırır. Belə ki, bu aşqarlar bituma 0,4% əlavə edildikdə 25°C-də iynəbatırma dərinliyi 50 mm, dartılma 75-90 sm-ə qədər, yumşalma temperaturu 47-46,5°C, kövrəklik temperaturu mənfi 26-27°C intervalında qiymətlər alır (cədvəl 2, nümunə 5,6).

Sintez olunmuş amidominin müxtəlif yağ turşuları ilə kompozisiyasını 0,6% miqdarında yol bitumuna əlavə etdikdə isə 25°C-də iynəbatırma dərinliyi 48 mm-dən 50 mm-ə qədər, dartılma 75 sm-dən 77 sm-ə qədər yüksəlir, yumşalma temperaturu 48°C-dən, 46,8°C-ə qədər, kövrəklik temperaturu isə mənfi 18-dən mənfi 25-27°C-yə qədər dəyişir. (cədvəl 3, nümunə 5, 6).

Hər iki cədvələ əsasən qeyd etmək olar ki, sintez olunmuş amidoaminin qarğıdalı və günəbaxan yağ turşuları ilə kompozisiyası əsasında hazırlanmış aşqarların bituma 0,4 və 0,6% miqdarında əlavəsindən sonra, adgeziyası 3 baldan 1 bala çatmışdır. Bu isə onu göstərir ki, bu aşqarın əlavə olunması bitumun yapışqanlığını daha da artırr və bitumun keyfiyyətini xeyli yaxşılaşmasına səbəb olur.

Şəkil 2-də Qarğıdalı yağ turşusu ilə heksametilendiamin əsasında sintez olunmuş amidoaminin müxtəlif yağ turşuları ilə kompozisiyalarının 0,4% miqdarında yol bitumuna əlavə olunması ilə ilə bitumun kövrəkliyinin yumşalma temperaturundan asılılıq qrafiki verilmişdir.




Şəkil 2. Qarğıdalı yağ turşusu ilə heksametilendiamin əsasında sintez olunmuş amidoaminin müxtəlif yağ turşuları ilə kompozisiyalarının 0,4% miqdarında yol bitumuna əlavə olunması ilə ilə bitumun kövrəkliyinin yumşalma temperaturundan asılılıq qrafiki.

**Qeyd:** B-yol bitumunun kövrəklik temperaturu

1. Amidoamin (qarğıdalı yağ turşusu + heksametilendiamin)1:1 mol nisbətində
2. Amidoamin + soya yağ turşusu 1:1 mol nisbətində
3. Amidoamin + pambıq yağ turşusu 1:1 mol nisbətində
4. Amidoamin + qarğıdalı yağ turşusu 1:1 mol nisbətində
5. Amidoamin + günəbaxan yağ turşusu 1:1 mol nisbətində

Şəkil 3-də qarğıdalı yağ turşusu ilə heksametilendiamin əsasında sintez olunmuş amidoaminin müxtəlif yağ turşuları ilə kompozisiyalarının 0,6% miqdarında yol bitumuna əlavə olunması ilə ilə bitumun kövrəkliyinin yumşalma temperaturundan asılılıq qrafiki verilmişdir.




Şəkil 3. Qarğıdalı yağ turşusu ilə heksametilendiamin əsasında sintez olunmuş amidoaminin müxtəlif yağ turşuları ilə kompozisiyalarının 0,6% miqdarında yol bitumuna əlavə olunması ilə ilə bitumun kövrəkliyinin yumşalma temperaturundan asılılıq qrafiki.

**Qeyd:** B-yol bitumunun kövrəklik temperaturu

1. Amidoamin (qarğıdalı yağ turşusu + heksametilendiamin) 1:1 mol nisbətində
2. Amidoamin + soya yağ turşusu 1:1 mol nisbətində
3. Amidoamin + pambıq yağ turşusu 1:1 mol nisbətində
4. Amidoamin + qarğıdalı yağ turşusu 1:1 mol nisbətində
5. Amidoamin + günəbaxan yağ turşusu 1:1 mol nisbətində

Şəkil 2 və 2-də sintez olunmuş amidoaminin müxtəlif yağ turşuları ilə yol bitumuna aşqar kimi 0,4 və 0,6% miqdarında əlavə olunması ilə qrafik təsvirindən göründüyü kimi, bitumun yumşalma temperaturu ilə kövrəklik temperaturu arasında asılılıq vardır. Belə ki, sintez olunmuş amidoaminin yağ turşuları ilə kompozisiyasının aşqar kimi yol bitumuna 0,4% miqdarında əlavəsində, bitumun yumşalma temperaturu aşağı düşdükcə, bitumun kövrəklik temperaturu -18°C-dən, -27°C-ə kimi artmasına səbəb olur ki, bu da bitumun keyfiyyət göstəricilərinin daha da yaxşılaşmasını bir daha aydın göstərir.

Qeyd edilən müsbət göstəricilər və adgeziya xassəsinin xeyli yaxşılaşması bir daha onu göstərir ki, bitumun keyfiyyətini yaxşılaşdırmaq məqsədi ilə bituma aşqarın əlavə olunması ən vacib məsələlərdən biridir.

Aparılan tədqiqatlardan belə bir nəticəyə gəlmək olar ki, sintez olunmuş amidoaminin qarğdalı və günəbaxan yağ turşuları ilə kompozisiyanın yol bitumuna aşqar kimi istifadə olunması daha əlverişli hesab olunur.

## Nəticə

1.Qarğıdalı yağ turşusu və heksametilendiamin əsaında 1:1 mol nisbətində amidomin sintez olunaraq, müxtəlif yağ turşuları ilə kompozisiyaları hazırlanmiş və bu kompozisiyaların Sintez olunmuş

amidoaminin qarğdalı və günəbaxan yağ turşuları ilə kompozisiyanın yol bitumuna 0,4 və 0,6% miqdarında əlavəsi bitumun keyfiyyət göstəricilərinə yaxşı təsir göstərmişdir

2.Müəyyən edilmişdir ki, sintez olunmuş amidoaminin günəbaxan və qarğıdalı yağ turşuları ilə kompozisiyaları yol bitumuna aşqar kimi 0,4% və 0,6% miqdarında əlavə edildikdə bitumun keyfiyyət göstəriciləri daha da yaxşılaşmış, iynə batma dərinliyi 25°C-də 50°C, dartılma 90 sm-ə qədər, kövrəklik temperaturu mənfi 27°C, yumşalma temperaturu isə 46,5°C -ə qədər dəyişmişdir.

3.Sintez olunmuş amidominin günəbaxan və qarğıdalı yağ turşusu ilə kompozisiyası aşqar kimi 0,4% və 0,6% miqdarında yol bitumuna əlavə olunması bitumun adgeziyasını 3 baldan 1 bala qədər dəyişmişdir.

## Ədəbiyyat

1. Гун Р.Б. Нефтяные битумы М.Химия , 1989, 428 с.
2. Возный С.И., Артеменко А.А., Евтеева С.М. Применение нефтеполимерных смол в композиционных материалах для дорожной разметки // Нефтепереработка и нефтехимия, 2012, № 6, с.37
3. Гайканова Р.Н., Будник В.А., Муратшин Р.Н. Современное представление о битумных продуктах // Нефтепереработка и Нефтехимия, 2011, № 10, с.8-13
4. Самедова Ф.И., Аллахвердиева А.А.Технология получения битумов. Баку: Элм, 2007, 155с.
5. Аминов Ш.Х., Кутин Ю.А., Струговец И.Б., Теляшев Э.Г. Современные битумные вяжущие и асфальтобетоны на их основе.Санкт-Петербург, «Недра», 2007, с.8, 10
6. Баясгалан Хилан, Бембель В.М., Головко А.К., Ширчин Баточир. Подготовка высококипящих остаточных фракций высокопарафинистых нефтей для производства битума // Нефтепереработка и Нефтехимия, 2008, №7, с.17-20
7. Абдуллин, А.И. Битумные вяжущие: учебное пособие/А.И. Абдуллин, Е.А. Емельянычева, Т.Ф. Ганиева, М.Р. Идрисов. - Казань: Изд-во КНИТУ, 2012. - 100 с.
8. Охотникова Е.С., Юсупова Т.Н., Ганеева Ю.М. и др. Влияние свойств олефиновых полимеров на качество модифицированных битумов // Нефтепереработка и Нефтехимия, 2010, № 11, с.35-39
9. Фахрутдинов Р.З., Дияров И.Н., Шамгунов Р.Р. и др. Улучшение адгезионных свойств нефтяного битума при помощи присадок катионного типа // Нефтепереработка и Нефтехимия, 2003, № 5, с.20-23
10. Кудряшов, П.А. Исследование термостабильности адгезионных добавок / П.А.Кудряшов, В.Г.Гермашев, В.А.Мартынов // Сборник докладов ежегодной научной сессии Ассоциации Исследователей Асфальтобетона МАДИ (ГТУ). - М., 2011. - С. 23-31
11. Аллахвердиев А.А, Самедова Ф.И. Итоги разработок по получению битумов из азербайджанских нефтей // Нефтехимия и нефтепереработка.2007, №4.с.25
12. Afandiyeva L.M., Ibragimov Kh.D., Rustamli G.Y. et al. Catalytic oxidation of naphthene-paraffin fraction by air oxygen in the presence of γ-$Al_2O_3$ modified by salts Cr, Co-, Mn // Chemical Problems Journal, 2019, № 2 (17), səh. 323-329
13. Abbasov V.M., Aliyeva L.İ., Afandiyeva L.M. et all. Catalytic influence of Cr- and Mn-acetylacetonates for oxidation process of naphthene-paraffin hydrocarbons to the synthetic petroleumacids mixture // Chemical Problems Journal, 2019, № 1 (17), p. 105-111

**Rəyçi: dos. E.Həsənov**

göndərildi 07.12.2020: qəbul edildi. 20.12.2020

DOI: https://www.doi.org/10.36719/16-19

**İlahə Mübariz qızı Əbdürahmanlı**
Bakı Dövlət Universiteti
magistrant
abdurahmanliilaha98@gmail.com

# SOSİAL MEDİADA ÖZÜNÜTƏQDİMETMƏNİ ŞƏRTLƏNDİRƏN AMİLLƏRİN TƏHLİLİ

***Açar sözlər:*** *özünütəqdimetmə, sosial media, sosial şəbəkələr, vitual aləm, kommunikasiya texnologiyaları*

## Analysis of the conditioned factors of self-presentation on social media

**Summary**

In modern ages the features of people's self-presentation in the virtual world against the background of the popularity of social media and the rise of interest in social networks are reviewed and examined the factors that affect it. Analysis of researches on the problem shows that personal self-presentation on social media is conditioned by factors such as age and gender, personal qualities, socio-economic differences, cultural diversity.
***Key words:*** self-presentation, social media, social networks, virtual world, communication technologies

## Giriş

Müasir dövrdə kommunikasiya texnologiyalarının sürətli inkişafı və sosial medianın populyarlaşması insanların qarşılıqlı əlaqə və ünsiyyət proseslərinin real təmas mühitindən virtual aləmə köçürülməsi, həyatın böyük bir hissəsinin bu mühitdə keçirilməsi ilə müşayiət olunur. İnsanlar özlərini ifadə etmək, sosiallaşmaq, əylənmək və ya işləmək üçün sosial mediadan istifadə edirlər. Ayrı-ayrı fərdlərin sosial media mühitində olması, həmçinin, virtual mənlik və virtual sosiallaşma fenomeninin də meydana gəlməsinə səbəb olur. Başqa sözlə, gündəlik həyatda üz-üzə münasibətlər quraraq özünü təqdim edən şəxslər rəqəmsallaşma nəticəsində özlərini sosial mediada təqdim edirlər.

Sosial şəbəkə saytlarının sürətlə yayılması və gündəlik həyatda mühüm rol oynaması insanlar, birlik və təşkilatlar arasındakı münasibətlərin fərqli ölçülərə keçməsini təmin etdi. Bu faktın özü isə ünsiyyət və münasibətlərin təbiətində bir sıra dəyişikliklər yaratdı.

Yeni medianın gətirdiyi sosial media şəbəkələri insanları fiziki mövcud olduğu mühitdən ayıraraq rəqəmsal mühitdə yeni bir həyat və şəxsiyyət yaratmağa sövq edir. Beləliklə də, insanlar virtual icmalar yaradaraq rəqəmsal bir mədəniyyəti yaşamağa və qoruyub saxlamağa başlayırlar.

Virtual icmaların, birliklərin müəyyən qaydaları fiziki aləmdən fərqlidir və burada fiziki təmas sayəsində formalaşan icmaların ünsiyyət üslublarına əməl edilmir. Onların əksəriyyəti zəif əlaqələrə əsaslanan, çoxşaxəli, ixtisaslaşmış və dəstək yarada bilən şəxsi sosial şəbəkələr olaraq müəyyən edilir (4, s.20).

Sosial-iqtisadi göstəricilər, fiziki görünüş kimi məhdudiyyətlərin olmadığı virtual cəmiyyətlərdə hər bir fərd öz rəqəmsal kimliyini yaratmaqla mövcud şəxsiyyətini və mənliyini yaratdığı obraza köçürə bilər. İnsanın özünün yaratdığı rəqəmsal mənliyin gerçək mənliklə üst-üstə düşüb-düşməməsinin əslində fərd üçün elə bir əhəmiyyəti yoxdur və sosial media şəbəkələrində yaradılan rəqəmsal mənliklərin gündəlik həyatı əks etdirməsi vacib deyil.

Fərd özü haqqında məlumatları sosial şəbəkələrdə paylaşaraq vizualizmə əsaslanan həqiqi və ya uydurma özünütəqdimetmə həyata keçirir (2). Virtual aləmdə istifadəçilərin status, post və özləri haqqında təqdim etdikləri informasiyalar sayəsində istədikləri şəxsiyyətə çevrilə biləcəkləri görülür. Adətən istifadəçilər geniş kütlələrin diqqətini çəkəcəyini düşündükləri və paylaşma nəticəsində bəyənmələrin alınmasını gözlədikləri məzmunu sosial mediada paylaşırlar. Qeyd olunanları daha aydın təsəvvür etmək üçün, görkəmli Kanada alimi Evrinq Qofmanın “Gündəlik həyatda özünütəqdimetmə” əsərinə diqqət çəkmək istərdik. Kitabda özünütəqdimetmə həyatı teatr tamaşasına bənzədən teatr yanaşması ilə izah olunur və insanların ətrafdakılara aktyorlar kimi alqışlanmaq üçün yaxşı təəssüratlar

yaradaraq aldıqları rəylə istədikləri şəxsiyyəti yaratma imkanlarına malik olması vurğulanır (2). Beləliklə, mənlik aktyorla eyniləşdirilən bir element deyil, aktyorla tamaşaçı arasındakı qarşılıqlı əlaqə və əks əlaqə nəticəsində ortaya çıxan bir fenomen kimi təsvir olunur (2, s.27). Yəni, burada tamaşaçıların da rolu və əhəmiyyəti diqqəti çəkir. Qofmana görə, aktyor hər zaman tamaşaçı qarşısında rol oynayır və onların gözündə özü haqqında müsbət təəssürat yaratmaq üçün müxtəlif hərəkətlər edir. Hər hansı bir qrup qarşısında çıxışında insan cəmiyyətin gözləntilərinə uyğun olaraq sosiallaşır və özü haqqında idealizə edilmiş bir təəssürat yaratmağa çalışır (6, s.45).

Sosial şəbəkələrdə özünütəqdimetmənin Qofman yanaşması ilə selfi fotoşəkillərinin çəkilməsi arasındakı əlaqəni araşdıran türk tədqiqatçı Zafer Özdəmir istifadəçilərin sosiallaşmaq məqsədilə, eləcə də diqqət çəkmək istəklərindən irəli gələrək selfini həyatlarının bir hissəsi halına gətirdiyini qeyd edir (14, s.128).

Ayrı-ayrı fərdlərin virtual mühitdəki "Mən"lərinin oflayn həyatlarındakı "Mən"lərindən çox fərqlənmədiyini müdafiə edən fikirlərə görə, onlayn mühitdə yaradılan və xüsusən də dostluq və sosiallaşma üçün istifadə olunan sosial şəbəkələrdə fərdləri öz adları ilə təmsil edən profillər oflayn Mənləri ilə əlaqəli olaraq yaradılır (1, s.74). Belə bir onlayn və oflayn mənzərələrin uyğunlaşması sosial şəbəkələrdə qurulan əksər əlaqələrin fərdin real həyatda ünsiyyətdə olduğu insanlardan ibarət olması ilə əlaqələndirilir. Fərdlər sosial şəbəkələrdə ailə üzvləri, dostları və qohumları ilə ünsiyyət qurduqları üçün özlərini gizlədə və özlərini başqası kimi təqdim edə bilmirlər. Bu vəziyyət rəqəmsal mühitdə təmsil olunan şəxslərin kimliyinin oflayn mənlikləriylə uyğunlaşmasını təmin edir (19, s.128).

Yuxarıda qeyd olunduğu kimi, virtual mühitdə yaradılan mənliklərin bilavasitə ünsiyyətdə təqdim olunanla eyni olduğu fikrinə qarşı, onlayn mənliklərin oflayn olanlardan tamamilə fərqli bir şəkildə meydana gəlməsini müdafiə edən ideyalar da mövcuddur (1, s.74). Bu konsepsiyalara görə, virtual mənlik insanın gerçək həyatdakı mənliyini istədiyi istiqamətə dəyişdirərək reallıqdan fərqli bir obrazı kimi ortaya çıxır. İnsanlar onlayn mühitdə "İdeal Mən" obrazlarını gerçəkləşdirərək gündəlik həyatlarından fərqli mənliklər əldə edirlər. Beləliklə də, rəqəmsal sosial mühit insanların öz Məni ilə bağlı arzu və xəyallarını "gerçəkləşdirə biləcəyi" bir məkan rolunu oynayır.

Başqa bir tədqiqatda sosial şəbəkə saytlarından biri olan Facebookda gənclərin virtual şəxsiyyətlərini necə yaratdıqlarını və özlərini necə təqdim etdikləri araşdırılıb (5). Gənclərin Facebookda özünütəqdimetmə taktikasından necə istifadə etdiyini müəyyən etmək üçün dəyişdirilmiş özünü təqdimetmə taktiki şkalası 14-18 yaş arası 407 nəfərə tətbiq edilmişdir. Nəticələrə əsasən gənclər Facebookda nümunəvi davranış, özünə sevgi, təhdidedici davranış və keyfiyyətləri təbliğ etmək kimi özünütəqdimetmə taktikalarından istifadə etmişdir. İstifadə olunan bu taktikalar arasında gender fərqinin olduğu da ortaya çıxmışdı (5, s.317). Tədqiqat, həmçinin, gənclərin çoxunun əsl adlarının Facebookda istifadə etdikləri adlar ilə eyni olmasını ortaya çıxardı. Həqiqi adların istifadə edilməsi kimi, həmçinin gənclərin dörddə üçününün həqiqi real şəkillərindən istifadə etdikləri müəyyən edildi (3).

Facebookdan istifadə təcrübələrində ən çox rast gəlinən meyl başqaları tərəfindən paylaşılan mənfi məlumatlardan qaçmaq, müsbət məlumatları isə paylaşaraq özünütəqdimetməni müvafiq şəkildə təmin etməkdir (12, s.423). Yəni insanlar paylaşım edərkən çox zaman müsbət keyfiyyətlərini və məlumatlarını ön plana qoyaraq, başqaları tərəfindən hörmət qazanmağa çalışırlar.

Sosial şəbəkələrin istifadəsinin tənha insanların sosiallaşması zamanı yaranan uğursuzluqlarını aradan qaldırmaq üçün alternativ bir yol olduğunu bildirən K.Li və digərləri bu istifadəçilərin öz duyğularını, statuslarını və vəziyyətlərini açıqlayan paylaşım etdiyi zaman dostlarının cavab vermələrini və reaksiya göstərmələrini gözlədiyini vurğulamışdı. (11, s.418). Aydın olur ki, sosial dəstək insanlara müsbət təsir edir və onların rifahını təmin edir.

Ekstravert insanların daha çox şəkil yüklədiyini, daha çox status yenilədiyini və divarlarında daha çox baxış olduğunu söyləyən Lii, onların introvertlərdən daha çox bəyənmə, şərh və paylaşım etdiklərini müəyyən etmişdi. (10, s.166).

Facebookdan istifadə məqsədlərinin hər yaş üçün fərqli olduğunu söyləyən E.Panek, Facebook paylaşım tezliyinin yeniyetmələrdə böyüklərdən daha yüksək olduğunu və bunun da özünü göstərmək ilə əlaqəli olduğunu vurğulamışdı (15,s. 2010).

Qlin və digərləri gənclərin yaşlılardan daha çox hesab açdıqlarını və bunu xəbər mənbələrinə daxil olmaq, xəbərləri oxumaq və bölüşmək üçün Facebook-dan daha çox istifadə etdiklərini vurğulayır.

Gənclərin Facebookdan daha çox istifadə etmələrini onu uzun müddət istifadə etmələri ilə əlaqələndirirlər (8, s.116-119).

Professor Nan Susman və tədqiqatçı Tayson ərəfindən aparılan araşdırma, fərdi məlumatların paylaşıldığı və fikirlərin müzakirə olunduğu onlayn icmalardakı qadınların kişilərdən daha aktiv olduqlarını, eləcə də internetdə kişi və qadınların cinsi rollarını əks etdirən formada hərəkət etdiklərini ortaya qoyur (5, s.317). Bu tədqiqatın nəticələrinə görə, xəbər və siyasi mövzularda kişilərin qadınlardan altı dəfə daha çox post paylaşdığı, digər tərəfdən, qadınların kişilərə nisbətən yüksək dərəcədə müzakirəyə açıq olduğu məlum olur. (18, s.381-394)

Facebookda profil şəkillərini araşdıran bir tədqiqatda, şəkilin məzmunu gender fərqi baxımından müzakirə edilib. Bu tədqiqatlarda kişilərin fotoşəkillərində diqqət mərkəzinin üz və baş, qadınlarda isə bədənlərinin olduğunu düşünən gender stereotiplərinin mədəniyyətlər arasında dəyişib dəyişmədiyi araşdırıldı. Nəticə olaraq kişi istifadəçiləri arasında baş və üzə diqqət yetirilən şəkillərin, qadınlarda isə bütün bədənə diqqət yetirilən şəkillərin paylaşıldığı məlum oldu. (17)

R.Guadaqno və onun əməkdaşları öz tədqiqatlarında kişilərin öz statuslarını, qadınların isə fiziki xüsusiyyətlərini vurğuladıqlarını, kişilərin boyları və qadınların isə çəkisi haqqında yalan dedikləri, kişilərin müəyyən ünsiyyət mühitlərində fərdi xarakter xüsusiyyətlərini daha çox dəyişdirdiklərini müəyyən etmişdilər (7, s.647).

İsraildən olan professor Gustavo Meş və tədqiqatçı Quy Beker tərəfindən fotoşəkillərlə bağlı aparılan araşdırmada qadın istifadəçilərin kişilərdən daha çox şəkil paylaşdığını və hər kəsin bu şəkillərə baxa bilməsi üçün onları əlçatan etdiyini, kişilərin isə öz videolarını daha çox paylaşdıqlarını müəyyən etmişdi (13, s.570-5920).

Profil şəkillərinin məzmunu və miqdarı baxımından kişilərlə qadınlar arasında heç bir fərq olmadığını qeyd edən N.Huma və başqaları hər iki cinsdən olan istifadəçilərin profil şəkillərində hərəkətsiz və tək bir poza verdiklərini vurğulamışlar (9, s.1828).

Türk tədqiqatçı Ahsen Armağan gənclərin müasir texnologiyaları hansı məqsədlə istifadə etdiklərini və özlərini virtual mühitdə təqdim edərkən hansı ünsiyyət taktikalarını istifadə etdiklərini müəyyən etmək məqsədlə 300 universitet tələbəsi ilə sorğu keçirmişdi. (5, s.317.). Tədqiqatın nəticələri genderə görə fərqlərin olduğunu ortaya çıxardı. Romantik münasibətlər baxımından kişi tələbələr qızlardan daha çox virtual mühitdən istifadə etdiyini; qadın tələbələrin öz videolarını və şəkillərini kişi tələbələrdən daha çox paylaşdıqlarını vurğuladı. Bundan əlavə bütün iştirakçıların sosial mediada özlərini təqdim edərkən şəxsiyyətlərini idealizə etdikləri və özlərini təqdim etmək üçün istifadə etdikləri taktikaların cinsi ayrı-seçkilik xaricində yaşlarına və yaşadıqları bölgəyə görə fərqləndikləri müəyyən edildi. (5, s.318)

Başqa bir tədqaiqat Veysəl Çakmak, Ümmügül Baş tərəfindən aparılmışdır. Bu tədqiqatın məqsədi Aksaray Sosial Elmlər Peşə Məktəbində oxuyan və İnstaqram istifadə edən universitet tələbələrinin özlərini təqdimetmələrini müəyyən etmək idi. Tədqiqatın nəticəsi olaraq tələbələrin İnstagramı daha çox vaxt keçirmək, başqaları (dostlar, məşhurlar, ailə və s.) barədə məlumat əldə etmək, gün ərzində yaşadığı xüsusilə gözəl və xoşbəxt anları bölüşmək, dostlarının xatirələrində qalmaq üçün istifadə etmələri müəyyən olunmuşdu (20).

Lii-Von və digərləri müsbət özünütəqdimetmənin mədəniyyətdən asılı olmadığını, lakin mədəni fərqlərin paylaşıma təsir etdiyini vurğulamışlar (12, s.423).

## Nəticə

Beləliklə, araşdırmalar sosial mediada özünütəqdimetmənin xüsusiyyətlərinin, onun çalarlarının bir sıra amillərlə şərtləndiyini göstərir ki, onları da, əsasən, yaş və gender xüsusiyyətləri, şəxsi keyfiyyətlər, sosial-iqtisadi fərqlilik, mədəni müxtəliflik kimi kateqoriyalara ayırd etmək olar. Qeyd olunan amillərdən gender və yaş baxımından fərqliliklər daha çox diqqəti çəkir ki, bu da məhz bu sahədə tədqiqatların daha çox aparılması ilə əlaqələndirilə bilər.

## Ədəbiyyat

1. Akbayrak Kübra. "Dijital ortamda benlik sunumları üzerine niteliksel bir araştırma" İstanbul Üniversitesi Sosyal Bilimler Enstitüsü Halkla İlişkiler ve Tanıtım Anabilim dalı, yüksek lisans tezi. 2019
2. Algül And "Sosyal ağ kullanıcılarının "abartılı paylaşım", "benlik sunumu" ve mahremiyet tüketimleri. Marmara Üniversitesi Öneri Dergisi (13) 21-44. 2018
3. Boz N. "Yeni İletişim Ortamlarında Dijital Kimlik ve Benlik Sunumu", Doktora Tezi, Marmara Üniversitesi Sosyal Bilimler Enstitüsü, İstanbul 2012.
4. Durmuş B., Yurtkoru E.S., Ulusu Y., Kılıç B., Facebook'tayız; Sosyal paylaşım ağlarının bireylere ve işletmelere yönelik incelenmesi: Facebook üzerine bir araştırma, İstanbul: Beta Yayınları 2010
5. Fatma Uçar. "Facebook'ta benlik sunumu ve toplumsal cinsiyet rolleri". Selçuk Üniversitesi İletişim Fakültesi Akademik Dergisi 9 (1). 2015
6. Goffman E. Günlük Yaşamda Benliğin Sunumu. (B. Cezar, Çev.) İstanbul: Metis Yayınları.: 2014
7. Guadagno R.E., Okdie B.M., Kruse S.A., Dating deception: Gender, online dating, and exaggerated self-presentation,Computers in Human Behavior 28. (642–647). 2012
8. Glynn J.C., Huge M.E., Hoffman L.H., "All the news that's fit to post: A profile of news use on social networking sites",Computers in Human Behavior, 28. (p.113–119). 2012
9. Huma N.J., Chamberlin P.E., Hambright B.L., Portwood A.C., Schat A.C., Bevan J.L. "A picture is worth a thousand words: A content analysis of 179 Facebook profile photographs, Computers in Human Behavior". 2011
10. Lee E., Ahn J., Kim Y.J., "Personality traits and self-presentation at Facebook". Personality and Individual Differences 69 (162–167) 2014
11. Lee K-T., Noh M-J., Koo D-M., "Lonely people are no longer lonely on social networking sites: The mediating role of self-disclosure and social support". Cyberpsychology, behavior and social networking Volume 16. Number 6 (p.413-418). 2013
12. Lee-Won R.J., Shim M., Kyoung Joo. Y., Gwan, P.S., "Who puts the best ''face'' forward on Facebook?: Positive self-presentation in online social networking and the role of self-consciousness, actual-to-total Friends ratio, and culture", Computers in Human Behavior, 39, (p.413–423). 2014
13. Mesch G.S, Beker G. Are Norms Of Disclosure Of Online And Offline Personal Information Associated With The Disclosure Of Personal Information Online?, Human Communication Research, 36 (4), 2010. 570–592
14. Özdemir Z. Sosyal Medyada Kimlik İnşasında Yeni Akım: Özçekim Kullanımı. Maltepe Üniversitesi İletişim Fakültesi Dergisi, 2(1), 112-131.
15. Panek E.T., Nardis Y., Konrath S., "Mirror or Megaphone?: How relationships between narcissism and social networking site use differ on Facebook and Twitter". Computers in Human Behavior, 29, p.2004– 2012. 2013
16. Pfeil U., Arjan R., Zaphiris P., "Age differences in online social networking – A study of user profiles and the social capital divide among teenagers and older users in MySpace", Computers in Human Behavior, 25, (p.643–654). 2009
17. Reichart S.L, Cooley S (2008) Faceism On Facebook: "An Analysis Of SelfInflicted Face-Ism In Online Profile Pictures". Paper presented at annual convention of the International Communication Association, Chicago, IL
18. Sussman N.M, Tyson D.H. Sex and Power: "Gender Differences In Computer Mediated Interactions, Computers in Human Behavior", (16). 2000
19. Sütlüoğlu Tuba: "Sosyal Paylaşım Ağlarında Gençlerin Sosyalleşme ve Kimlik İnşası Süreçleri: Facebook Örneği", Folklor Edebiyat Dergisi, 21 (83), 2015
20. Veysel Ç, Ümmügül B. "Benlik sunum araci olarak instagram kullanimi: öğrenciler üzerine nitel bir araştirma", UHİVE www.uhedergisi.com Uluslararası Hakemli İletişim ve Edebiyat Araştırmaları Dergisi, 98

**Rəyçi: dos. L.Cabbarova**

göndərildi 09.12.2020: qəbul edildi. 23.12.2020

DOI: https://www.doi.org/10.36719/20-22

**Chingiz Nasimi Chingizzadeh**
Baku State University
master
Cingizzadec@gmail.com

# THE DEFINITION OF TRADEMARK AND ITS FUNCTION

**Summary**

In all jurisdictions, there is a general agreement, supported by Articles 15 and 16 of the TRIPS Agreement, that trademarks must be marks that distinguish the goods or services of one enterprise from the goods or services of others in order to be able to protect the rights of the first enterprise. Thus, the protection of business reputation is associated with the main function of the trademark.

***Key words:*** *Intellectual property, trademark, signs, legal functions, economic functions, property*

While patents and copyrights can be defined as government subsidies that give their inventors the right to use, manufacture, or sell a product exclusively for a specified period of time, until recently, trademarks were perceived only as an indication of the commercial origin of goods. Consequently, trademarks have never belonged to monopolies.

A trademark is defined as ‘any sign capable of being represented graphically which is capable of distinguishing goods or services of one undertaking from those of other undertakings’. (5/160) As can be seen from the definition, trademarks are not limited to symbols in the strict sense of the word, as the law theoretically allows registration of non-traditional marks. Regardless of whether the trademarks are strictly symbols or not, it is reasonable to state that the force of the trademarks and the legal privileges afforded to them are exclusive. Trademarks endow their owners with an inherent value that can last indefinitely with the intelligence and due diligence.

## The nature of trademarks

In general, what falls under a brand is outside of the product itself. The functional qualities and characteristics of the article therefore go beyond the protection of trademarks and deserve attention elsewhere (for example in patent law or advertising law). This does not mean that trademarks do not provide information about the quality and characteristics of products. However, information about the physical characteristics of products is derived from consumer experiences with products attached to a trademark, and not from the trademark itself.

Words are the most common types of characters. Word marks include: made-up word marks (fancy marks) such as Kodak, arbitrary word marks unrelated to the products they are attached to, such as Apple, or words indicating a product's function (suggestive marks) such as Kleenex. However, companies that use word marks and especially obscure marks run the risk that these words will become generic and thus eventually become public. In this case, the trademark loses legal protection. This clause confirms the argument that after re-privatization a brand loses its private property characteristics and becomes free for use in the public sphere. (6/96)

Trademark owners have also benefited from legal recognition of new types of protected materials (implicit in the current TMD), such as aromatic and colored marks, provided that these symbols have a source identification function. In fact, the expansion of protected issues in trademark law, which occurred concurrently with the expansion of trademark protection in Europe, has sparked debate about the need to rethink the current legal relationship to trademarks.

At this early stage, it is important to distinguish between trademarks and other markings. For example, a trade name is not a trademark and therefore the former should not be used to denote a trademark unless both are identical. Likewise, unlike a trademark that associates a product with a source, a certification mark (for example, a cotton trademark registered by the National Cotton Service) attempts to identify products with specific characteristics or indicate that products meet

certain standards. Finally, a label or ticket may contain a trademark, but the former is more inclusive as it may contain other information in addition to the trademark.

### Trademarks as marketing shortcuts

A brand is a merchandising label and a rich open treasure trove of data. The brand acts as an external signal to help shoppers extract valuable information about specific products that might not otherwise be actively processed. Jacoby compares a brand to an icon on a computer screen. Clicking on this icon displays a large amount of information. In the context of trademarks, the information received takes the form of connected inflections containing positive or negative signals. This information convinces consumers to prefer one product over another. In general, a trademark acts as an "information umbrella" that helps to eliminate information asymmetries and market disruptions, ensuring the quality of market information and simplifying purchasing decisions (4/59).

However, the information obtained through the trademark can be either factual (for example, toothpaste reduces tooth decay) or, alternatively, in the form of emotional responses generated by advertising campaigns. While the first type of information can indeed correct information asymmetries (through lower search costs and quality assurance), there is less consensus about the economic value of the second type of information. This is at the heart of today's trademark debate. A comprehensive understanding of these conflicting functions of trademarks forms the basis on which chapters three and four will be developed.

### Trademarks as a symbol for goodwill

In addition to the traditional role of trademarks as transmitters of information, trademarks have evolved since the second half of the 19th century in a new but controversial context, namely in the context of the misappropriation model in trademark law. Under this model, trademark law aims not only to prevent confusion, but also to prevent unauthorized misappropriation by protecting the company's business reputation. The logic behind this misappropriation argument is simple. A defendant using the plaintiff's trademark to attract customers will be considered misuse of the business reputation of the existing business, even if the plaintiff's reputation has not been damaged in any way. From a legal and moral point of view, misappropriation implies a stowaway regime, which should perhaps be prohibited.

From a legal point of view, goodwill is a concept that is difficult to understand as a thing of form or content. In essence, goodwill is defined as a course of action, not as a thing that makes future business more than an accident. Goodwill is most commonly defined as goodwill and the particular value attached to a trademark when a seller's investment in advertising and quality builds customer loyalty.

The relationship between trademarks and goodwill is also reflected in the concept of trademarks as property. When commentators and the judiciary referred to property in the mark, Bone said, they did not intend to protect the symbol as valuable or to encourage the design of the original marks. Instead, they mainly aimed to protect the merchant's ability to use his hard-earned reputation for profit. On this basis, the reputation of the company was protected.

### The legal function

The CJEU, in the first case with Hag II, noted that the main function of trademarks is to guarantee consumers the identity of labeled products. This is due to the fact that consumers can distinguish a product or service from other goods or services of a different origin without confusion.

The preceding statement may imply that the function of a trademark is simply to indicate the origin of the goods to which the trademark is applied. In theory, when a symbol is registered as a trademark for a particular product or class of goods, any product marked with that trademark is considered to have been produced in the same establishment. In order for a trademark to perform the function of identification of origin, the owners of the registered mark must be granted the right to exclude the use of the same trademark in goods and services that they do not produce. By granting this exclusive right, trademark owners benefit in the short term from the consistent, continuous communication that is established between them and their products. In the long term, trademark owners can benefit from the marketing incentive associated with using the same trademark as a means of identification.

*The specific subject matter of a trademark is to grant the owner the right to use the mark for the first marketing of a product which protects him from competitors who would like to abuse the position and reputation of the mark by selling goods to which the mark have been improperly affixed. (2/48)*

## The economic functions

To achieve economic equilibrium in a freely competitive market, decisions must be made on the basis of accurate information; consumers must have accessible and reliable product information. This facilitates optimal decision making. However, in all markets, manufacturers are better informed about their products than consumers. Even more worrisome, these manufacturers do not have sufficient incentives to disclose all available information about their products, especially negative aspects of quality. (3/99) The end result is information asymmetry that can lead to market disruptions. Information asymmetry increases the risk of error and makes it difficult for consumers to check product quality.

In addition to lowering search costs, a more complex function of trademarks in the economic spectrum is to denote quality, which was briefly mentioned earlier. This is what is called the trust function of a trademark.

There is no global definition of the term “quality”. While traditionally quality has been measured in terms of superiority (objective quality), quality has increasingly been measured in terms of value versus price (perceived quality) or value versus consumer preference (diversity features). Regarding the last point, the characteristics of quality and variety have traditionally been distinguished on the basis that the former include characteristics appreciated by all consumers, while the value of the latter depends on the tastes of the consumers. For example, while all consumers agree that coffee should preferably be freshly ground (quality characteristics), opinions are divided as to whether the taste should be bitter, sweet, pungent, etc.

Typically, trademarks provide the public with assurance that products bearing the same marks are "similar in nature, quality and characteristics." Because trademarks guarantee the public that all products bearing those trademarks originate under the control of a single anonymous source, trademarks become a coherent set of promises that meet a specific set of consumer expectations. Thus, the role of a trademark as a quality assurance tool largely depends on the function of origin.

## References

Azerbaijani

1. Əmir Əliyev, “İnsan hüquqları”, 2016
2. Etibar Əliyev, “Avropa əqli mülkiyyət hüququ”, 2014

Russian

3. ПантюхинаА. Товарный знак. Экономические и правовые аспекты, 1995
4. Успенская Н.В. Товарный знак как составная часть права интеллектуальной собственности, 2005

English

5. SIMON, B., “TRIPS Agreement: Trademarks”, Kluwer Law International, 2011
6. WIPO, Introduction to Intellectual Property, Theory and Practice, 1997

**Rəyçi: prof. Ə.Əliyev**

göndərildi 20.12.2020: qəbul edildi. 26.13.2020

DOI: https://www.doi.org/10.36719/23-26

**Saleh Eldar oğlu Bağırov**
Azərbaycan Turizm ve Menecment Universiteti
magistrant
baghirovsaleh@gmail.com

# MƏDƏNİ QLOBALLAŞMA ZƏMİNİNDƏ YARANAN DÖVLƏTLƏRARASI MÜNAQİŞƏLƏR

***Açar sözlər:*** *Mədəni qloballaşma, Qərbləşmə, Amerikanlaşma, Modernləşmə, Avropa İttifaqı, Yaxın və Orta Şərq*

## Interstate conflicts caused by cultural globalization

**Summary**

Interstate conflicts arising from cultural globalization are stem from a number of factors. The article examines the effects of Americanization sometimes associated with Westernization, as well as the effects of Modernization, which are among these factors. Interstate conflicts caused by cultural globalization have been analyzed on the basis of the European Union, as well as the Middle East cases.

***Key words:*** *Cultural Globalization, Westernization, Americanization, Modernization, European Union, Middle East*

## Giriş

Günümüzün qloballaşan dünyasında mütəşəkkil münaqişələr keçmişin klassik dövlətlərarası və ya daxili müharibələrindən fərqli yeni formalar aldı. Bu “yeni müharibələr” xüsusilə Afrika və Şərqi Avropada daha çox baş verir. Müharibələr qeyri-dövlət və dövlət aktorlarının silahlı şəbəkələri, o cümlədən hərbiləşdirilmiş qruplar, terror qrupları, mütəşəkkil cinayətkar qruplar, özəl hərbi şirkətlər və muzdlular tərəfindən aparılır. Bu şəbəkələr çox vaxt millətçi və fundamentalist hərəkatlarla əlaqəli həddindən artıq siyasi ideologiyalar ətrafında formalaşmağa meyllidir (1, s.68). Bosniya, Qafqaz, Orta Asiya və ya Kəşmirdəki qanlı mədəniyyət toqquşmaları daha böyük müharibələrə çevrilə bilər. Yuqoslaviya münaqişələrində Rusiya Serblərə diplomatik dəstək verdi. Səudiyyə Ərəbistanı, Türkiyə, İran və Liviya ideologiya, güc siyasəti və ya iqtisadi maraq səbəbiylə deyil mədəni qohumluq səbəbiylə Bosniyalılara maliyyə və silah təmin etdi. Keçmiş Çexiya prezidenti Vaklav Havel qeyd etdi ki, “Mədəni qarşıdurmalar artmaqdadır və bu gün tarixin hər dövrünə nisbətən daha təhlükəlidir”. Eyni zamanda fransız siyasətçi Jak Delor “gələcək qarşıdurmaların iqtisadi və ya ideologiyadan daha çox mədəni amillərdən qaynaqlanacağını” qəbul etdi (6, s. 28). Bu cəhətdən “Sivilizasiyaların toqquşması” anlayışına diqqət yetirək. Sivilizasiyaların toqquşması da eyni şəkildə bəşəriyyəti davamlı qarşıdurmaya və rəqabətə məhkum edən bir lənət kimi bədbin bir çərçivədə dəyərləndirir, dünyanı qovuşmaz fərqlərin bir arxipelaqı olaraq, insan dialoqunu müharibə dialoqu olaraq və qlobal ekümeni əbədi bir döyüş meydanı olaraq qiymətləndirir (8, s.59). Mədəni qloballaşmadan irəli gələn münaqişələrə isə bir sıra amillər təsir edir. Bu amillər sırasına daxil olan Modernləşmə və Amerikanlaşma qərbləşmənin son versiyasıdır. Müstəmləkəçilik Avropalaşmanı təmin edirdisə, ABŞ hegemonluğu altındakı neokolonializm Amerikanlaşmanı təmin edir (8, s.51). Bu amilləri Aİ və Orta Şərq modelləri əsasında nəzərdən keçirə bilərik.

***Modernləşmə*** - Dünya cəmiyyətləri “modernləşdikcə” getdikcə bir-birlərinə bənzəyəcəklərinə inanılırdı. Bununla birlikdə, müasirlik qlobal olduqda, fərqli “müasir” cəmiyyətlər inkişaf etdi. XXI əsrin əvvəllərinə qədər hər bir cəmiyyət müasirlik tərəfindən müəyyən mənada dəyişdirildi, yəni “modernləşdi”. Müasirliyin müxtəlif formaları arasındakı rəqabət, bəzi cəmiyyətlər üçün bu gün dünyada görünən əsas münaqişələrin bir hissəsidir. Dövrümüzün böyük qarşıdurmaları sivilizasiyaların toqquşması deyil, fərqli müasirlik səviyyələri arasındakı toqquşmalar və rəqabətdir: buna görə də “mədəniyyətlərin toqquşması” deyil, “müasirliklərin toqquşması” adlandırıla bilər (10).

Bəzən, əksər alimlər modernləşməni millətçiliyin yüksəlməsi ilə əlaqələndirirlər. Bu mənada İslam fundamentalizmi və ya qeyri-ənənəvi İslamı "millətdən kənar" millətçilik forması kimi xarakterizə etmək olar. Milliyyətçi olsun və ya olmasın, radikal İslamın şiddətlənməsi, Qərb Modernləşməsinin nəticəsi kimi müəyyən edilmişdir (2, s.355). Bununla birlikdə, qloballaşmanın mədəni təsirinə qarşı ən güclü müqavimət əslində modernizmin özünə qarşı bir zərbədir. Fundamentalist dini mədəniyyətin yüksəlməsi, yalnız İslam fundamentalizmi deyil, həmçinin xristianlığın və bir çox digər dinlərin fəal meydan oxuduğu da aydındır (7, s.108).

***Amerikanlaşma.*** Bir tərəfdən qloballaşmaya sadəcə Amerikanlaşma kimi baxılırsa, onda bu bir növ müstəmləkəçilik və ya imperializm deməkdir. Bu isə qloballaşmaya qarşı yerli mədəniyyətin etirazı olaraq müqavimət hərəkatlarının aktivləşməsiylə və ya dövlət səviyyəsində patriotik qadağalarla nəticələnir. Bundan əlavə, Çin və Rusiya kimi güclü avtoritar dövlətlər, geniş yayılmış anti-Amerika münasibətlərini səfərbər edərək dövlət vətənpərvərliyindən artıq dərəcədə istifadə etdilər (2, s.356). Ümumiyyətlə, qloballaşmanın təsiri etnik qarşıdurmanın, vətənpərvərliyin və millətçiliyin yayılması ilə açıq şəkildə əlaqələndirilir (2, s.364).

***Müasir Avropada mədəni qloballaşmanın yaratdığı qarşıdurmalar*** - Amerikanın rəhbərlik etdiyi qloballaşma bu gün Avropa ilə Amerika arasındakı ən böyük fərqliliklərdən biridir və qloballaşmaya fərqli münasibətlərini əhatə edir (1, s.233). Avropalıların və Amerikalıların dünyaya ortaq bir baxış tərzi olduğunu iddia etmək də düzgün deyil. Robert Kaganın Amerikalılar Marsdan, Avropalılar Veneradan-dir məhşur ifadəsi də də buna misaldır. Məsələn, ABŞ-ın İraqdakı müharibəsi ilə bağlı tənqidi Avropanın bəzi ölkələrinin ona dəstək verməməsi də bunu təsdiqləyir (1, s. 241).

Həqiqətənmi ABŞ və Avropa arasında dəyər fərqləri hədədən çoxdur? Avropa-Amerika dəyər fərqləri, qloballaşma termini altında qarşısıalınmaz homogenləşmə proseslərinin mövcudluğunu artırdıqca daha çox ortaya çıxa bilər. Bəziləri fərqli mədəni dəyərlərə məruz qalmağın, mədəni fərqlilikləri zəiflətmək əvəzinə gücləndirərək, özünün mədəni kimliyini daha çox qorumağa sövq edəcəyini iddia edirlər. Avropa ilə Amerika arasındakı zahirən təməl fərqliliklərin artan dərki bu cür bir proses ola bilər. Bu halda Avropa və Amerika dəyərləri arasındakı fikir ayrılığı müşahidə edilə bilər. Lakin, dəqiq bir nəticə çixartmadan öncə empirik tədqiqatlar ortaya qoyulmalıdır (1, s.242).

Avropa daxilində bir çox ölkədə həddindən artıq sağçıların dirçəlişində, son zamanlarda artan etnik qarşıdurmada və irqi şiddətin artan səviyyəsində qloballaşma ilə bağlı münaqişələr görülə bilər. Bəzi Avropa dövlətlərində qloballaşmanın yüksək miqrasiya səviyyələri və Amerika mədəni imperializmi kimi aspektlərin yerli mədəniyyətləri və milli həyat tərzini aşındırdığı narahatlıqlarında da əks olunur (5,. s.35). Məsələn, Almaniyadakı Cümhuriyyət Partiyası və Fransadakı Milli Cəbhə, mədəni separatizmi və insanların öz ölkələri daxilində öz milli kimliklərinə və mədəniyyətlərinə sahib çıxması üçün immiqrasiyanı məhdudlaşdırmalı olduqlarını vurğuladılar. Hətta, bəziləri isə Amerikanlaşma anlayışına qarşı çıxır və bunun qarşısını almaq üçün zəruri tədbirlər görülməli olduğunu deyirlər. ABŞ-ın mədəni hegemonluğu ilə əlaqədar Avropada ifadə edilən narahatlıqlar çox vaxt mədəni imperializm baxımından ifadə edilir (5, s.42).

Əlavə olaraq, Amerika ideallarına əsaslanan yeni mədəni normaların qəbul edilməsi istehlakçılığın Avropa şəhərlərində hakim olmasına açıq şəkildə imkan verdi. Daha böyük şəhərlərin mədəniyyətin homogenləşməsini görmə ehtimalı daha çox olduğu aydın olsa da, Cənubi Avropadakı ənənəvi şəhərlərdə belə, qarışıq mədəniyyətin bir çox elementi var idi. Homogen bir mədəniyyətin ən problemli nəticəsi ənənəvi mədəni dəyərlərin, o cümlədən dilin itkisidir. Disney, Hannah Montana və ya Amerika mədəniyyətindəki digər məşhur ikonaların reklamlarını görmədən Afina, Olympia və ya Roma küçələrində gəzmək çətindir. İnsanlar daha gənc bir yaşda hədəf alındıqda, qlobal mədəniyyətin homogenləşməsinə etiraz etmə ehtimalını azaldır, buna görə də əsrlər boyu mövcud olan ənənələri və dəyərləri məhv edirlər (9, s.47).

Qərbi Avropa, demək olar ki, Şərqi Avropadan daha çox qloballaşma prosesləri ilə birbaşa əlaqəli olmuşdur. Bu, Qərbi Avropanın müstəmləkəçilik irsi, eləcə də iyirminci əsrdə ABŞ və Yaponiya kimi ölkələrlə əlaqələri, həmçinin sosial və iqtisadi inkişaf dərəcəsi daxil olmaqla tarixinin nəticəsidir. Nəticə etibarı ilə, Qərbi Avropa xalqlarının çoxu qloballaşma aspektləri ilə bağlı mütəmadi təcrübələrə sahibdirlər. Eynilə, Şərqi Avropa bölgəsindəki iqtisadiyyatın beynəlxalq

iqtisadiyyatla əlaqələri Qərbi Avropadakı həmkarlarından daha azdır. Şərqi Avropa ölkələri indi qlobal rəqabət qabiliyyətinin tələbləri ilə qarşılaşarkən və bir çoxu iqtisadiyyatlarını buna uyğun şəkildə yenidən qurur, çünki Qərbi Avropa ölkələri ilə eyni prosesləri keçməyiblər (5, s.52).

Xüsusi olaraq hazırlanmış Aİ-nın mədəniyyət mübadiləsinə yönəlmiş siyasətini çıxmaq şərtilə qonşu regionlar, qruplar və millətlər üçün hazırlanmış davamlı və sistematik mədəniyyətlərarası mübadilə təşviqləri azdır. Aİ çərçivəsindən kənarda, mədəniyyətlərarası dialoq son dərəcə çətin olaraq qalır (2, s.356). Lakin, Avropanın millətçilik müharibələri, etnik gərginlik və irqçilik tarixini nəzərə alsaq, kosmopolitlərin əhəmiyyətsiz bir azlıq qrupu olduğu düşünülür. Bununla birlikdə, kosmopolitizmin daha geniş yayılacağına və qloballaşmanın aspektlərinin bu prosesə kömək edə biləcəyinə inanmaq üçün də əsaslar var (5, s.61).

***İslam dünyasında mədəni qloballaşmanın yaratdığı münaqişələr*** - XIX əsrin əvvəllərində müsəlmanlar Avropanın hakim olduğu bir dünyada yaşamaqla razı idilər. İslam siyasətdən ayrı idi. Bunun əksinə olaraq, müasir Müsəlman və Ərəb dirçəlişi, dini siyasətə qaytarır və yalnız Qərb hegemonluğunu hədəf almır, eyni zamanda “mədəni qloballaşma” adlanan anlauışa da qarşı çıxır. Mədəni İslamlaşma Qərbdən kənarlaşdırma yolu ilə təmizlənməyi hədəfləyir (1, s.221). Dinin siyasiləşdirilməsi, siyasətin dinə çevrilməsi və münaqişənin mədəniləşdirilməsi nəticəsində yaranan kimli siyasəti gərginliyin əsas mənbəyinə çevrilir. Bu mədəni münasibətlər sadəcə iqtisadi quruluşların əkslikləri deyil, öz mahiyyət etibarilə dini bir təhlükə kimi dərk etməkdən qaynaqlanır (1, s.222).

Qloballaşmanın insanları bir araya gətirməsi tez-tez söylənsə də, dəlillər insanları və icmaları getdikcə daha da kiçik qruplara və ya alt hissələrə bölə biləcəyini göstərir. Çünki əslində qloballaşma insanların öz əcdadlarını qəbul etmək əvəzinə öz kimliklərini formalaşdırmaq azadlığını artırır. Bu səbəbdən həqiqətən azadedici bir fenomendir. Lakin, bu məsələ bəzi kimlik böhranlarına səbəb olur. Məsələn, Yaxın Şərq bunu özünə təhdid kimi görür (3, s.24-26). Ərəb və müsəlman sosial dəyərlərinə qarşı Amerika populyar mədəniyyətinin ixracı yolu ilə qəbul edilən təhlükə, ümumi ərəb əhalisini öz cəmiyyətlərinə Qərbin daha da nüfuz etməsindən qorxmalarına səbəb oldu. Sadə bir geosiyasi baxış budur ki, qloballaşma, İslam dəyərlərini pozmağa və İslamın mərkəzi birliyini məhv etməyə yönələn bir “şeytan sivilizasiyasının” işğalından başqa bir şey deyil (3, s.29).

Qloballaşma İslamın müasirliyi ilə bağlı mənfi vəziyyətini daha da qabartdı. Tək, monolit bir İslam olmasa da, dünyadakı minlərlə İslamla əlaqəli olan yerli mədəniyyətlərin varlığı danılmazdır, lakin bunlar daima axın içərisindədir və daxili müxtəliflik ilə xarakterizə olunur. İslami kimlik siyasəti bu cür fərqli etnosları homogenləşdirdi. İndi inşa edilən kollektiv İslami inanclar cihad və səlib yürüşü tarixi ətrafında dönərək İslam kimliyini qurban bir kimlik kimi göstərməyə yönəlir (1, s.228). Qloballaşma Orta Şərqdə yeganə əsas hərəkətverici deyil və bölgədə ortaya çıxan tendensiyaların, eləcə də böyük dəyişikliklərin lazımınca başa düşülməsi üçün geopolitik kontekstdən dəyərləndirmək lazımdır (3, s.1). Bənzərsiz və tarixən fərqli bir mədəniyyətə sahib olan müsəlman Yaxın Şərqində, bir çox digər bölgələrlə müqayisədə, qloballaşmanın nüfuz etməsi, problemin daha çox dövlət səviyyəsində dərindən hiss edilməsi deməkdir (3, s.3).

İslamla Qərb arasındakı gərginlik, həqiqətən, bir struktur qarşıdurmasının mədəniləşdirilməsidir və ya mədəniyyət özü ziddiyyətin təməlidir? Cavab budur ki, qarşılıqlı təsir mövcuddur. Bu qarşılıqlı təsir qismən mövcud müsəlmanların mədəni müdafiə münasibətlərinin əsasında olan məhdudiyyətlərdən, eyni zamanda yaradılmış fərqli mədəni baxış tərzindən asılıdır (məsələn, cihad və şəriət) bunun bir hissəsidir. Müsəlman sivilizasiyası içərisində plüralizmin qəbulu inkişaf etdirilməlidir, lakin bunun üçün müsəlmanlara mədəni-dini islahatlar aparmaq lazımdır (1, s. 228-229).

Bəzi tənqidçilər bildirirlər ki, ərəblərin azad olmaq istəmədiklərini fərz etmək irqçilikdir, lakin ABŞ-ın da bölgədəki təcavüzkar hərbi ekspedisiyalarına haqq qazandırmaq olmaz. Yaxın Şərqdə olanlar da, dünyanın digər bölgələrindəki insanlar kimi azadlıq istəyirlər, ancaq bu insanların öz tarixləri var və bu səbəbdən azadlığa qovuşmaq üçün öz metodikaları var. Çox uzun müddətdir ki, “gender bərabərliyi” və ya “demokratiya” kimi dəyərlər isə sırf Qərb dəyərləridi deyə bəzən qərəzli şəkildə rədd edilir. Bu münasibət, Qərbin “ərəb” icadı olduğu üçün Orta əsrlərdə cəbrdən imtina

etməsinə bərabərdir. Əlbəttə, bu cür inamsızlığın tarixi səbəbləri var (4). XVIII əsrdən bəri, Qərb ölkələrində müasirlik inkişaf etdikcə, iki müasir rəqabət üslubu ortaya çıxdı. Biri fərdiyyətçiliyi və demokratik xalqın iştirakını vurğulayarkən, digəri icma kimliyinin (millətçilikdən avtoritar kommunizmə qədər) və mərkəzləşdirilmiş cəmiyyətin vacibliyini vurğuladı (10).

İran inanır ki, xalqlar iqtisadi, siyasi və mədəni quruluşlarını gücləndirərək qloballaşmanı təsirsiz hala gətirməlidir. Ərəb dünyasında da oxşar mənzərədir. Ərəb ziyalıları üçün, əksər hallarda Ərəb/İslam mədəniyyəti ilə bağlı narahatlıqlar üstünlük təşkil edir. Qloballaşma, onlar üçün nəhayət ərəb mədəniyyətinin özəlliklərini (xüsusiyyətlərini) söndürəcəkdir (3, s.29). Bəziləri, Səudiyyə Ərəbistanında rejim dəyişikliyini İslam terrorizmi probleminin son həlli kimi tövsiyə etdilər (3, s.38). Nəticə etibarı ilə Latın Amerikası musiqi və qida məhsulları ilə homogenləşməkdən narahat ola bilər, amma İslam Yaxın Şərqi qloballaşma məhsulları və fikirlərinin bütün sahələrini təhlükəli hesab edir. Qərb həyatının boş əxlaqının mənfi təsirini vurğulamaq Yaxın Şərqdə gündəlik məsələdir (3, s.130).

## Ədəbiyyat

1. Anheier, Helmut K, and Yudhishthir Raj Isar, eds. “Cultures and Globalization: Conflicts and Tensions (The Cultures and Globalization Series) (v. 1).” Sage, 2007.
2. Conversi, Daniele. "Globalization, ethnic conflict, and nationalism." *Chap* 18 (2010): 346-366. citeseerx.ist.psu.edu/viewdoc/download?doi=10.1.1.456.5405&rep=rep1&type=pdf
3. Ehteshami, Anoushiravan. Globalization and geopolitics in the Middle East: Old games, new rules. Routledge, 2007: p 257. https://b-ok.asia/book/865526/13180b
4. Eltantawi, Sarah. “The Limitations of a Dialogue of Civilizations.” YaleGlobal Online. Yale University, April 4, 2005. https://yaleglobal.yale.edu/content/limitations-dialogue-civilizations.
5. Hopper, Paul. *Living with globalization*. Berg, New York, 2006. p 191. https://b-ok.asia/book/1199723/f9fa57
6. Huntington, Samuel P. "The Clash of Civilizations and the Remaking of World Order." Simon& Schuster, New York, 1996. https://b-ok.asia/book/689348/74ee3d
7. Lee, Richard. *Globalization, language, and culture*. Infobase Publishing, 2006.
8. Pieterse, Jan Nederveen. *Globalization and culture: Global mélange*. Rowman & Littlefield, United States of America, 2009, p 196. https://b-ok.asia/book/1235307/0faae9
9. Turbeville, Michael Austin. "Globalization: Cultural Impacts and Implications into the Twenty-First Century." (2010), p 91.https://digitalcommons.brockport.edu/cgi/viewcontent.cgi?article= 1084&context=ehd_theses
10. “The Impossibility of the Clash of Civilizations in a Globalized World.” ACMCU, August 10, 2019. https://acmcu.georgetown.edu/2013/11/04/the-impossibility-of-the-clash-of-civilizations-in-a-globalized-world/.

**Rəyçi: t.e.n. N.Bədəlov**

göndərildi 11.12.2020: qəbul edildi. 25.12.2020

**İÇİNDƏKİLƏR**

**Südabə Nəsrəddin qızı İsgəndərova**
Məktəbəqədər dövrdə uşaqların psixi inkişafında refleksiv bacarıqların formalaşması şərtləri ........................................................................................................ 6
**Rəşad Rəhim oğlu Ağakişiyev**
Heksametilendiamin və qarğıdalı yağ turşusu əsasında sintez olunmuş amidominin müxtəlif yağ turşuları ilə hazırlanmış kompozisiyalarınn bituma aşqar kimi tədqiqi ........................................................................................................ 9
**İlahə Mübariz qızı Əbdürahmanlı**
Sosial mediada özünütəqdimetməni şərtləndirən amillərin təhlili .......................................... 16
**Chingiz Nasimi Chingizzadeh**
The definition of trademark and its function ....................................................................... 20
**Saleh Eldar oğlu Bağırov**
Mədəni qloballaşma zəminində yaranan dövlətlərarası münaqişələr ....................................... 23

Çapa imzalanmışdır: 29.06.2021
Kağız formatı: 60/84
H/n həcmi: 3,5
Sifariş: 402

---

www.aem.az saytında çap olunub
**Redaksiya ünvanı:** Bakı şəh., Mətbuat prospekti, 529-cu məh.
Tel.: +994 50 209 59 68
+994 55 209 59 68
+994 12 510 63 99
E-mail: info@aem.az